AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

2 MAY 2018-ci il ÇƏRŞƏNBƏ № 97 (6130) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Ağdaş rayonunun Qolqəti-Dəhnəxəlil-Qoşaqovaq-Ərəbocağı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** On iki min nəfər əhalinin yaşadığı 10 yaşayış məntəqəsini birləşdirən Qolqəti-Dəhnəxəlil-Qoşaqovaq-Ərəbocağı avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 11,6 milyon (on bir milyon altı yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 may 2018-ci il.**

## "Azərbaycan Respublikasından Avropa İttifaqı ölkələrinə yeyinti məhsullarının ixracının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 aprel tarixli 218 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasından Avropa İttifaqı ölkələrinə yeyinti məhsullarının ixracının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 aprel tarixli 218 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, N 4, maddə 293; 2006, N 5, maddə 401; 2014, N 5, maddə 477; 2016, N 8, maddə 1384) aşağıdakı dəyişikliklər edilsin:

*1.1.* 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi Avropa İttifaqı ölkələrinə ixrac edilən qida məhsullarının təhlükəsizlik meyarları üzrə ekspertizasının keçirilməsi, həmin ekspertizanın nəticələrinə uyğun olaraq onlara təsdiqedici kod nömrələrinin və ixracatçılara ekspertizanın nəticələrini təsdiq edən sənədlərin verilməsi, qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qeydiyyatı və dövlət reyestrinin aparılması fəaliyyətini həyata keçirən, habelə Avropa İttifaqının bu sahədə müvafiq tələblərinin icrasını təmin edən vahid səlahiyyətli orqandır.";

*1.2.* 3-cü hissədə "İqtisadiyyat Nazirliyinin" sözləri "Qida Təhlükəsizliyi Agentliyinin" sözləri ilə əvəz edilsin.

**2.** Bu Fərman 2018-ci il iyulun 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 may 2018-ci il.**

## "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1013-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1013-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 16 aprel 2018-ci il.**

## "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin 1-ci hissəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Standartlaşdırma haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 2, maddə 92; 2001, N 11, maddə 683; 2004, N 2, maddə 57, N 10, maddə 761; 2007, N 10, maddə 938; 2009, N 12, maddə 948; 2014, N 10, maddə 1166; 2017, N 6, maddə 1025) 6-cı maddəsinin ikinci hissəsinin birinci abzasına aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Ərzaq məhsulları üçün dövlət standartları yalnız tövsiyə olunan tələbləri müəyyənləşdirir və həmin dövlət standartlarının tətbiqi könüllü xarakter daşıyır.".

**Maddə 2.** Bu Qanun 2018-ci il iyulun 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 23 fevral 2018-ci il.**

## "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər və "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 iyun tarixli 1471 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

*1.1.* "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 4.0.4-cü maddəsində nəzərdə tutulmuş məktəbəqədər təhsilin inkişafına ayrılan dövlət büdcəsi vəsaitinin həcmini müəyyən etmək üzrə vəzifəni Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

*1.2.* həmin Qanunun 23.7-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini, o cümlədən 4.0.4-cü (məktəbəqədər təhsilin inkişafına ayrılan dövlət büdcəsi vəsaitinin maliyyə mexanizmlərini və normativlərini müəyyən etmək üzrə) və 4.0.15-ci (məktəbəqədər təhsil müəssisələrinin yaradılması və inkişafını təşviq edən mexanizmləri hazırlamaq üzrə) maddələrində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

*1.3.* həmin Qanunun 4.0.7-ci, 4.0.10-cu, 4.0.12-ci (məktəbəqədər təhsil müəssisəsinin akkreditasiyasını həyata keçirmək üzrə) və 4.0.18-ci maddələrində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Təhsil Nazirliyi həyata keçirir;

*1.4.* həmin Qanunun 14.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini və 4.0.14-cü maddəsində nəzərdə tutulmuş məktəbəqədər təhsil müəssisələrində tibbi xidməti təmin etmək üzrə vəzifəni Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;

*1.5.* həmin Qanunun 4.0.4-cü maddəsində nəzərdə tutulmuş məktəbəqədər təhsilin inkişafına ayrılan dövlət büdcəsi vəsaitinin icrasına nəzarəti təmin etmək üzrə vəzifəni Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir;

*1.6.* həmin Qanunun 23.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini, o cümlədən öz tabeliyində olan məktəbəqədər təhsil müəssisələrinə münasibətdə 4.0.8-ci, 4.0.12-ci (məktəbəqədər təhsil müəssisəsinin işçilərin attestasiyasını həyata keçirmək üzrə) və 4.0.14-cü (dövlət məktəbəqədər təhsil müəssisələrində uşaqların qidalanmasını təmin etmək üzrə) maddələrində nəzərdə tutulmuş vəzifələri, həmçinin 4.0.15-ci maddəsində nəzərdə tutulmuş məktəbəqədər təhsil müəssisələrinin yaradılması və inkişafını təşviq edən mexanizmləri həyata keçirmək üzrə vəzifəni yerli icra hakimiyyəti orqanları (Bakı şəhəri üzrə Bakı Şəhər İcra Hakimiyyəti, Gəncə şəhəri üzrə Gəncə Şəhər İcra Hakimiyyəti) həyata keçirirlər.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*2.1.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*2.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*2.3.* "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 4.0.3-cü maddəsində nəzərdə tutulmuş vəzifəni həyata keçirəcək icra hakimiyyəti orqanı barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*2.4.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*2.5.* bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**4.** "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 iyun tarixli 1471 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, N 6, maddə 1087) aşağıdakı dəyişikliklər edilsin:

*4.1.* 2.1-ci bənddə "(məktəbəqədər təhsil sahəsində dövlət siyasətini formalaşdırmaq üzrə)" sözlərindən sonra vergül işarəsi qoyulsun, "və" sözü çıxarılsın və "(məktəbəqədər təhsilə dair normativ hüquqi aktlar təsdiq etmək üzrə)" sözlərindən sonra "və 4.0.4-cü maddəsində (məktəbəqədər təhsilin inkişafına ayrılan dövlət büdcəsi vəsaitinin həcmini müəyyən etmək üzrə)" sözləri əlavə edilsin;

*4.2.* 2.2-ci bənddə "23.1-ci" sözlərindən sonra ", 23.7-ci" sözləri, "4.0.6-cı" sözlərindən əvvəl "4.0.4-cü (məktəbəqədər təhsilin inkişafına ayrılan dövlət büdcəsi vəsaitinin maliyyə mexanizmlərini və normativlərini müəyyən etmək üzrə)," sözləri, "və 4.0.19-cu" sözlərindən əvvəl ", 4.0.15-ci (məktəbəqədər təhsil müəssisələrinin yaradılması və inkişafını təşviq edən mexanizmləri hazırlamaq üzrə)" sözləri əlavə edilsin;

*4.3.* 2.4-cü bənddə "15.3-cü maddəsində" sözləri "15.3-cü və 23.3-cü maddələrində" sözləri ilə əvəz edilsin, "4.0.13-cü" sözlərindən əvvəl "4.0.8-ci, 4.0.12-ci (məktəbəqədər təhsil müəssisəsinin işçilərinin attestasiyasını həyata keçirmək üzrə)," sözləri, "və 4.0.16-cı" sözlərindən əvvəl ", 4.0.14-cü (dövlət məktəbəqədər təhsil müəssisələrində uşaqların qidalanmasını təmin etmək üzrə)" sözləri, "həyata keçirirlər" sözlərindən əvvəl ", 4.0.15-ci maddəsində (məktəbəqədər təhsil müəssisələrinin yaradılması və inkişafını təşviq edən mexanizmləri həyata keçirmək üzrə) nəzərdə tutulmuş vəzifəni yerli icra hakimiyyəti orqanları (Bakı şəhəri üzrə Bakı Şəhər İcra Hakimiyyəti, Gəncə şəhəri üzrə Gəncə Şəhər İcra Hakimiyyəti)" sözləri əlavə edilsin;

*4.4.* 2.4-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.5-ci, 2.6-cı, 2.7-ci bəndlər əlavə edilsin:

"2.5. həmin Qanunun 4.0.7-ci, 4.0.10-cu, 4.0.12-ci (məktəbəqədər təhsil müəssisəsinin akkreditasiyasını həyata keçirmək üzrə) və 4.0.18-ci maddələrində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Təhsil Nazirliyi həyata keçirir;

2.6. həmin Qanunun 14.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini və 4.0.14-cü maddəsində nəzərdə tutulmuş məktəbəqədər təhsil müəssisələrində tibbi xidməti təmin etmək üzrə vəzifəni Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;

2.7. həmin Qanunun 4.0.4-cü maddəsində nəzərdə tutulmuş məktəbəqədər təhsilin inkişafına ayrılan dövlət büdcəsi vəsaitinin icrasına nəzarəti təmin etmək üzrə vəzifəni Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 23 aprel 2018-ci il.**

# SƏMİMİ TƏBRİKLƏR

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi İraq xalqı və hökuməti adından, şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Cənab Prezident, Sizə işlərinizdə yeni-yeni uğurlar, dost Azərbaycan xalqına davamlı inkişaf və sabitlik arzulayıram.

*Ən dərin hörmət və ehtiramla,*

**Doktor Heydər əl-İbadi**
**İraq Respublikasının Baş naziri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Son illərdə Azərbaycan-Yaponiya parlamentlərarası əlaqələrinin inkişafı bizi çox sevindirir. Diplomatik münasibətlərin qurulmasının 26-cı ildönümünü qarşılayan ölkələrimiz arasındakı xoş münasibətlərin və əməkdaşlığın Zati-alinizin səyləri ilə daha da inkişaf edəcəyinə əminəm.

Cənab Prezident, Sizi əmin edirəm ki, 1998-ci ildə parlamentlərarası dostluq liqası qurulandan bəri əlaqələrimizin davamlı inkişafı üçün çalışan bir şəxs kimi, Yaponiya-Azərbaycan münasibətlərinin daha da dərinləşməsi istiqamətində əlimdən gələni əsirgəməyəcəyəm.

Zati-alinizə möhkəm cansağlığı və işlərinizdə müvəffəqiyyətlər diləyirəm.

*Sizinlə yenidən görüşmək arzusu ilə,*

**Akira Amari**
**Yaponiya-Azərbaycan Parlamentlərarası Dostluq Liqasının sədri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Azərbaycanda futbolun inkişafı ilə bağlı 2016-cı ildə Bakıda keçirdiyimiz görüşü məmnunluq hissi ilə xatırlayıram. İcazə verin, ötən müddətdə Azərbaycan Futbol Federasiyaları Assosiasiyasına (AFFA) və valehedici ölkənizin milyonlarla futbol azarkeşinə verdiyiniz dəstək üçün Sizə bir daha təşəkkürümü bildirim.

Prezidentliyinizin yeni dönəmində Bakıda dünya miqyaslı iki futbol tədbiri keçiriləcək - UEFA Avropa Liqası 2019-un final oyunu və Avro-2020-nin oyunları. Əminəm ki, Sizin dəstəyiniz və AFFA-nın diqqətəlayiq səyləri sayəsində hər iki vacib yarış birmənalı şəkildə uğurla keçiriləcəkdir.

Ali dövləti fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

**Aleksander Çeferin**
**UEFA-nın prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Ötən illər ərzində Sizinlə və hökumətinizlə işləmək mənim üçün şərəfli olmuşdur. Dünya Bankı 2030-cu ilədək olan dövrü əhatə edən Azərbaycan Strateji Yol Xəritəsinin icrasını dəstəkləmək əzmindədir. Biz bütün Azərbaycan vətəndaşlarının faydalanacağı siyasi proqramların və investisiya layihələrinin hazırlanmasında və həyata keçirilməsində hökumətə yardım etmək üçün qlobal təcrübəmizi bölüşməyə hazırıq.

Azərbaycan son on ildə yoxsulluğun azaldılması sahəsində heyrətamiz nəticələrə nail olmuş, sürətli inkişaf yolu keçmişdir. Bu inkişaf sayəsində Azərbaycan digər ortagəlirli ölkələr sırasına qoşulmuşdur. Mən, həmçinin milli iqtisadiyyatın şaxələndirilməsi və ölkənin neft-qaz sənayesindən asılılığının azaldılması, özəl sektorun aparıcı rol oynadığı yeni iqtisadi artım modelinə keçilməsi məqsədilə Azərbaycan iqtisadiyyatının qlobal dəyərlər zəncirinə inteqrasiyasına yardım edəcək hərtərəfli islahatların aparılmasında göstərdiyiniz qətiyyəti təqdir edirəm. Ölkənizin zəngin təbii sərvətlərini və insan kapitalını nəzərə alaraq əminliklə deyə bilərəm ki, Azərbaycanın gələcəkdə inkişafla bağlı bundan da gözəl nəticələr əldə etmək imkanı vardır.

Zati-aliləri, Prezidentliyinizin yeni dönəmində Sizə uğurlar diləyirəm. Əminəm ki, əməkdaşlığımız bundan sonra da davam edəcək.

*Səmimiyyətlə,*

**Siril Müller**
**Dünya Bankının Avropa və Mərkəzi Asiya Regionu üzrə vitse-prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Sizin rəhbərliyinizlə "Total" SOCAR ilə tərəfdaşlıq əsasında Azərbaycanın neft və qaz sektorunun uzunmüddətli fəaliyyətinə töhfə verməyə davam edəcək.

Azərbaycan Respublikasının Prezidenti kimi ali dövləti fəaliyyətinizin yeni dönəmində Sizə "Total" şirkətinin kəşfiyyat və hasilat şöbəsi adından və şəxsən öz adımdan uğurlar diləyirəm.

*Hörmətlə,*

**Arno Breyak**
**"Total" şirkətinin kəşfiyyat və hasilat üzrə prezidenti**

# Xronika

## ÖTƏN GÜNLƏRİN TARİXİ ANLARI



*2018-ci il aprelin 11-də keçirilmiş Prezident seçkilərində xalqın böyük istəyi və seçimi ilə möhtərəm İlham Heydər oğlu Əliyev azad, ədalətli, şəffaf və demokratik şəraitdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.*

*Prezidentin Azərbaycana, xalqa sədaqət andı içdiyi uğurlu gündən başlayaraq onun gərgin iş günü tükənməz enerji ilə, çoxcəhətli ictimai-siyasi fəaliyyətlə davam edir.*

*Böyük şəxsiyyət, ümummilli lider Heydər Əliyevin siyasi kursunu, onun keçdiyi şərəfli yolu ləyaqətlə davam etdirən möhtərəm İlham Əliyev hər bir Azərbaycan vətəndaşının prezidentidir. Ölkəmizin həyatında yeni mərhələnin reallaşması onun yorulmaz fəaliyyəti, dərin zəkası, uzaqgörənliyi ilə sıx bağlıdır.*

*İlham Əliyevin gündəlik gərgin əməli fəaliyyəti sayəsində ölkəmizin ictimai-iqtisadi və sosial həyatının misli görünməmiş yüksəlişi bütün dünya ictimaiyyətinin də diqqət mərkəzindədir. Bu gün Azərbaycan böyük yüksəliş yolundadır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il aprel ayının 18-dən başlayan gündəlik fəaliyyəti, səfərləri, görüşləri, çıxışları, nitqləri, məruzələri, müsahibələri və qəbulları ardıcıllıqla yada salınacaq, oxucuların nəzərinə çatdırılacaqdır. Burada həmin "Xronika–ötən günlərin tarixi anları" təqdim olunur.*

**"Respublika".**

Xronika Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının "Azərbaycan Respublikasının Prezidenti: Gündəlik fəaliyyətin xronikası" adlı elektron biblioqrafik göstəricisinin materialları əsasında hazırlanmışdır.

*(əvvəli 20, 21 və 25 aprel tarixli saylarımızda)*

### 24 aprel 2018-ci il

○ **Niderlandın Kralı Əlahəzrət Villem-Aleksandra:** Niderland Krallığının milli bayramı - Kral Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

○ **Syerra-Leone Respublikasının Prezidenti Zati-aliləri cənab Culius Maada Bioya:** Syerra-Leone Respublikasının Prezidenti vəzifəsinə seçilməyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

○ **Cənubi Afrika Respublikasının Prezidenti Zati-aliləri cənab Matamela Siril Ramafozaya:** Cənubi Afrika Respublikasının milli bayramı - Azadlıq Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 25 aprel 2018-ci il

○ **"XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusunda beşinci beynəlxalq elmi konfransın iştirakçılarına:** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 26 aprel 2018-ci il

○ **Azərbaycan Prezidenti İlham Əliyevin Böyük Britaniyaya səfəri:** Azərbaycan Prezidenti İlham Əliyevin Böyük Britaniyanın ticarət və ixracın təşviqi üzrə dövlət naziri ilə görüşü olub.



○ **Azərbaycan Prezidenti İlham Əliyevin Böyük Britaniyaya səfəri:** Azərbaycan Prezidenti İlham Əliyev Böyük Britaniyanın Avropa və Amerika məsələləri üzrə dövlət naziri ilə görüşüb.

○ **Azərbaycan Prezidenti İlham Əliyevin Böyük Britaniyaya səfəri:** Prezident İlham Əliyev Britaniya parlamentinin bir qrup üzvü ilə görüşüb.

○ **Azərbaycan Prezidenti İlham Əliyevin Böyük Britaniyaya səfəri:** Prezident İlham Əliyev Londonda BP şirkətinin baş icraçı direktoru ilə görüşüb.

○ **Azərbaycan Prezidenti İlham Əliyevin Böyük Britaniyaya səfəri:** Azərbaycan Prezidenti İlham Əliyevin və Böyük Britaniyanın Baş naziri xanım Tereza Meyin görüşü.

### 27 aprel 2018-ci il

○ Prezident İlham Əliyev Avropa Parlamentinin Azərbaycan üzrə daimi məruzəçisini qəbul edib.

### 28 aprel 2018-ci il

○ Azərbaycan Prezidenti İlham Əliyevin və Böyük Britaniyanın Baş naziri xanım Tereza Meyin görüşü.

### 29 aprel 2018-ci il



○ **Bakıda möhtəşəm Formula 1 Azərbaycan Qran-Prisi başa çatıb:** Azərbaycan Prezidenti İlham Əliyev Qran-Prinin açılış mərasiminə və final yarışına baxıb.

### 30 aprel 2018-ci il

○ Prezident İlham Əliyev yeni inşa edilmiş "Tufan" tipli sərhəd gözətçi gəmisi ilə tanış olub.

*(davamı növbəti saylarımızda)*

# Azərbaycan dövlətinin memarı və qurucusu

**Müasir Azərbaycanın çağdaş tarixi dünyamiqyaslı siyasi xadim, ulu öndər Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyev bəşər tarixinin ən böyük və bənzərsiz şəxsiyyətlərdəndir.**



Ulu öndərimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü 1969-1982-ci illərdə gördüyü işlər, həyatımızın bütün sahələrində baş vermiş inkişaf və tərəqqi, köklü dəyişikliklər quruculuq salnaməsinin ən parlaq səhifəsini təşkil edir. Müasir Azərbaycan dövlətçiliyinin təməlini ulu öndər hələ o vaxtlar respublikamıza rəhbərlik etdiyi sovetlər dönəmində yaratmışdır. O, Azərbaycanı geridə qalmış respublikadan inkişaf etmiş sənaye ölkəsinə çevirdi. Ulu öndər Azərbaycana rəhbərliyinin bütün mərhələsində öz xalqına sonsuz məhəbbət və sədaqət hissi ilə, qurub-yaratmaq amalı ilə yaşamış, onu üzləşdiyi fəlakətlərdən qorumaq üçün böyük fədakarlıqlar göstərmişdir. Ümummilli lider Heydər Əliyev canından çox sevdiyi öz xalqına möhkəm dövlətçilik təsisatlarına malik, demokratik, dünyəvi, bəşəri dəyərlərə sadiq, dünya birliyində öz layiqli yerini tutan müasir, müstəqil Azərbaycanı bəxş etdi. Bu gün qətiyyətlə qeyd edirik ki, Azərbaycan dövlətinin əldə etdiyi uğurların təməlində Heydər Əliyev dühası, onun siyasi və iqtisadi inkişaf kursu dayanır. Hazırda Azərbaycanın müstəqil dövlət kimi yaşaması, dünyada qüdrətli bir ölkəyə çevrilməsi üçün Heydər Əliyevə borcluyuq.

1993-cü ildə böyük çətinliklər bahasına əldə etdiyimiz kövrək müstəqilliyimizin itirilməsi ilə qarşı-qarşıya qalanda xalqımız öz fədakar oğlu Heydər Əliyevə üz tutdu. Onu təkidlə ölkə rəhbərliyinə dəvət etdi. Xalqımız yaxşı bilirdi ki, ölkəmizi düşdüyü ağır, çıxılmaz vəziyyətdən, qarşılaşdığı böyük bəladan yalnız Heydər Əliyev dühası, qətiyyəti qurtara bilər. Xalqının taleyinə biganə qalmayan ulu öndər bu çağırışa səs verdi, Naxçıvandan Bakıya gəldi. Respublikada tüğyan edən özbaşınalıq, hərc-mərclik, vətəndaş müharibəsinin və başqa xoşagəlməz amillərin qarşısının alınması üçün öz həyatını və canını böyük təhlükə altına atdı. Bütün çətinlikləri göz altına alan Heydər Əliyev bu hallara qarşı qəti mübarizəyə başladı. Qısa bir zaman kəsiyində ölkədə cərəyan edən xaosun, anarxiyanın qarşısı alındı, qanunsuz fəaliyyət göstərən silahlı dəstələr tərk-silah edildi. Azərbaycan parçalanıb məhv olmaq təhlükəsindən xilas olundu və tez bir zamanda ölkədə sabitlik yarandı, respublikamız inkişaf yoluna qədəm qoydu. Bu, sözün əsl mənasında, "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm"—deyib, meydana atılan böyük ürəkli, cəsarətli Vətən oğlunun öz milləti, öz Vətəninin qarşısında misilsiz fədakarlığı idi.

Dahi öndər Heydər Əliyevin adı və şərəfli həyatı öz Vətəninə, xalqına məhəbbətin təcəssümü kimi daim yaşayacaq, Azərbaycanın həm indiki, həm də gələcək nəsillərinə əbədi örnək olacaqdır. Heydər Əliyev müstəsna fəaliyyəti ilə müasir, suveren Azərbaycan dövlətini yaratdı. Biz bu gün fəxrlə qeyd edirik ki, müstəqil Azərbaycan dövləti ulu öndərin şah əsəridir. Azərbaycanı həmişə müstəqil, inkişaf etmiş dövlətlər sırasında görmək istəyən Heydər Əliyev bu barədə danışarkən vurğulamışdır: "Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi özüm üçün əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Azərbaycan Respublikası bundan sonra da onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir dövlətin əsarəti altına düşməyəcək".

Dövlət müstəqilliyinin möhkəmləndirilməsində, milli sərvətlərimizdən ölkənin və xalqın mənafeyinə uyğun istifadə olunmasında Heydər Əliyevin uğurlu neft strategiyası xüsusi əhəmiyyət kəsb edir. 1994-cü il sentyabr ayının 20-də dünyanın ən inkişaf etmiş ölkələrinin aparıcı neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" ölkə iqtisadiyyatının sürətlə inkişaf etməsinə güclü təkan vermiş, müstəqilliyimizi daha da möhkəmləndirmişdir. Heydər Əliyevin uğurlu neft strategiyası Azərbaycanın yeni iqtisadi modelinin formalaşdırılmasında mühüm rol oynamış, ölkəni regionda və dünyada mühüm rol oynayan bir dövlətə, böyük neft-qaz mərkəzlərindən birinə çevirmişdir. 1999-cu ildə ATƏT-in İstanbul zirvə toplantısında Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin inkişafına dair bağlanmış saziş Azərbaycanın gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb etmişdir.

Ümummilli liderimizin dövlət quruculuğundakı xidmətləri də əvəzsizdir. Heydər Əliyev demokratik və hüquqi islahatları ardıcıl olaraq həyata keçirdi. O, hər şeydən öncə, insan hüquq və azadlıqlarının təminatı məsələlərinə xüsusi diqqət yetirdi. Ulu öndərin rəhbərliyi altında hazırlanan və 1995-ci ilin 21 noyabrında ümumxalq referendumu ilə qəbul olunan Azərbaycanın ilk Milli Konstitusiyası ölkəmizin inkişaf istiqamətlərini müəyyən etmiş, siyasi və iqtisadi islahatların möhkəm bazisinə çevrilmişdir. Yeni Konstitusiyanın qəbulundan sonra müstəqil Azərbaycanda çoxpartiyalı sistem, siyasi plüralizm, söz azadlığı bərqərar olmuş, məhkəmə-hüquq islahatları uğurla davam etdirilmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə Şərqdə ilk dəfə olaraq ölüm cəzasının ləğvi, Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi, Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması və digər mühüm əhəmiyyət kəsb edən işlər ölkəmizin demokratik inkişaf yolunda əldə etdiyi ən böyük nailiyyətlərdəndir. Azərbaycanın ilk Milli Konstitusiyasında mənəvi sərvətlərimizə, tarixi irsimizə, dinimizə hörmət dövlət səviyyəsinə qaldırıldı. Milli dövlətçilik, demokratiya və dünyəvilik kimi ümumbəşəri dəyərləri özündə ehtiva edən azərbaycançılıq ideologiyasının əsası qoyuldu. Heydər Əliyev dünyanın bir çox ölkələrinə səpələnmiş soydaşlarımızın milli məfkurə əsasında birləşməsini və müxtəlif ölkələrdə Azərbaycan diaspor təşkilatlarının yaradılmasını təmin etdi. Xarici səfərlərinin hamısında vaxt tapıb soydaşlarımızla görüşür, onların yaşam tərzi, problemləri ilə maraqlanır, öz tapşırıq və tövsiyələrini verirdi. Dünya Azərbaycanlılarının Bakıda keçirilən I qurultayında ulu öndər proqram xarakterli çıxışında demişdir: "Biz azərbaycançılığın dövlət rəmzlərini yaşadan müstəqil dövlətimizin ətrafında daha sıx birləşməli, onun tərəqqisi üçün əlimizdən gələni əsirgəməməliyik".

Böyük öndər 1993-cü ildə yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra iqtisadiyyatın ağır vəziyyətdə olmasına baxmayaraq bütün sahələrlə bərabər Azərbaycan səhiyyəsinin inkişafını da daim öz diqqətində saxlamış və bu istiqamətdə çox mühüm tədbirlər görülməsinə nail olmuşdur. Heydər Əliyevin rəhbərliyi altında səhiyyə siyasətinin hüquqi bazası—qanunvericilik təminatı yaradılıb.

Ulu öndər Heydər Əliyevin öz xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri də müəyyənləşdirdiyi inkişaf kursunu, milli inkişaf strategiyasını və siyasi kursunu özündən sonra inam və ardıcıllıqla davam etdirə biləcək layiqli siyasi varis yetişdirməsidir. O, 2003-cü ilin oktyabrında xalqa ünvanladığı tarixi müraciətində demişdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu gün qürur hissi ilə deyə bilərik ki, Azərbaycan Prezidenti İlham Əliyev ulu öndərin siyasi-iqtisadi kursunu qloballaşan dünyanın tələblərinə uyğun olaraq yeni məzmun və keyfiyyətdə uğurla davam etdirir. Ölkə rəhbəri bu gün dünyada böyük nüfuza və hörmətə malik siyasətçi, təcrübəli dövlət rəhbəridir. Onun idarəçiliyi ilə müstəqil Azərbaycan inkişaf etmiş dövlətlər sırasındadır, iqtisadi artımına görə lider mövqedədir. "Mən hər bir azərbaycanlının Prezidenti olacağam",—deyən cənab İlham Əliyev doğurdan da hər bir azərbaycanlının prezidenti oldu. O, ölkə rəhbəri kimi, fəaliyyətə başladığı ilk gündən dəfələrlə vurğulayıb ki, Azərbaycanda Heydər Əliyev siyasi-iqtisadi inkişaf kursu davam etdiriləcək, Bu kursa alternativ yoxdur. Çünki bu kurs inkişaf və tərəqqi yoludur.

Bu siyasi kursun cənab İlham Əliyevin rəhbərliyi ilə reallaşması sayəsində 15 il ərzində ölkəmizdə bütün sahələrdə möhtəşəm uğurlara imza atılıb. Bu dövr ərzində davamlı surətdə iqtisadi islahatlar aparılıb, beynəlxalq aləmdə böyük uğurlar qazanılıb, sosial məsələlərin həllinə diqqət artırılıb, demokratik inkişaf yolu ilə gedən Azərbaycanda bütün azadlıqlar təmin edilib. Bu gün Azərbaycan xalqı öz taleyinin və milli sərvətinin sahibidir. Ulu öndər tərəfindən təməli qoyulmuş Bakı-Tbilisi-Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verildi və böyük gəlirlər əldə olunmağa başladı. Ondan sonra Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istifadəyə verilməsi Azərbaycanı qaz ixrac edən ölkəyə çevirdi. Ötən ilin oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı isə növbəti tarixi nailiyyətlərimizdir. Bununla bərabər "Şimal-Cənub" nəqliyyat dəhlizinin yaradılması ilə bağlı işlər uğurla aparılır və beləliklə Azərbaycan Avrasiyanın mühüm nəqliyyat mərkəzlərindən birinə çevrilir.

Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi də tanınmışdır. Ölkəmizdə mötəbər beynəlxalq tədbirlərin keçirilməsi, Avropa oyunları, İslam Həmrəyliyi Oyunları, Formula 1 yarışları, siyasi və humanitar tədbirlər Azərbaycanı dünyaya daha yaxından təqdim edir. 15 il ərzində Olimpiya Oyunlarında, dünya, Avropa çempionatlarında idmançılarımız böyük qələbələr qazanıb. Bir sözlə, Azərbaycanda cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunmuş uğurların miqyası olduqca böyükdür və bütün sahələrdə əldə edilmiş möhtəşəm nailiyyətlər Azərbaycanı inkişaf etmiş dövlətlər sırasına çatdırmışdır. Bütün əldə olunmuş həm siyasi, həm iqtisadi uğurların təməlində isə xalq-iqtidar birliyi dayanır. Təsadüfi deyil ki, 2018-ci il aprelin 11-də keçirilən növbədənkənar Prezident seçkilərində xalqımızın böyük əksəriyyəti öz iradəsini yenidən nümayiş etdirərək Heydər Əliyev siyasətinə, onu uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevə, bir sözlə, sosial-iqtisadi inkişafa, quruculuğa və firavan gələcəyə səs verdi. Bununla da Azərbaycan xalqı görülən işləri, inkişafı, tərəqqiyi, təhlükəsizliyi seçdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimindəki çıxışında vurğuladı ki, Prezident seçkiləri Azərbaycan xalqının iradəsini əks etdirdi və xalqımız görülən işlərə yüksək qiymət vermişdir. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Mən bundan sonra da Heydər Əliyev siyasətinə sadiq qalacağam və bu siyasəti davam etdirəcəyəm. Fəxr edirəm ki, xalq mənə inanır, məni dəstəkləyir və mən də öz növbəmdə xalqa verdiyim sözlərə əməl edirəm və edəcəyəm. Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm, hiss edirəm və bu dəstəyə arxalanmışam. Xalqımı əmin edirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm.

Son 15 ildə aparılan islahatlar ölkə səhiyyəsinin də müasir dünya tələbləri səviyyəsində inkişafını təmin etmişdir. Azərbaycan Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva bu sahəyə xüsusi diqqət və qayğı göstərir. Bu gün Azərbaycan səhiyyəsi özünün inkişaf və tərəqqi dövrünü yaşayır. Bu barədə ölkə başçısı qeyd etmişdir ki, "Azərbaycanda səhiyyə sistemində aparılan islahatlar, görülən işlər dünya səviyyəsində gedir. Hətta deyə bilərəm ki, biz artıq Azərbaycan standartlarından da danışa bilərik". Azərbaycan Prezidenti cənab İlham Əliyev təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş səhiyyə islahatlarını uğurla davam etdirir, səhiyyə ocaqları ən müasir texnoloji avadanlıqlarla tam təmin edilir, səhiyyə sahəsində qanunvericilik bazası təkmilləşdirilir. Əvvəllər Azərbaycanda aparılması mümkün olmayan cərrahi əməliyyatlar hazırda ölkəmizdə peşəkar cərrahlar tərəfindən uğurla reallaşdırılır, insanlar öz sağlamlıqlarına qovuşurlar. Ölkə səhiyyəsinin son illər inkişaf edərək dünya standartlarına uyğunlaşdırılmasında səhiyyə naziri, hörmətli Oqtay Şirəliyevin bu sahəyə mütəmadi diqqət və qayğısını da qeyd etmək lazımdır. Görülən işlərin nəticəsidir ki, cənab Prezident öz sərəncamı ilə yenidən Oqtay Şirəliyevi səhiyyə naziri vəzifəsinə təyin etmişdir.

Onu da qeyd edim ki, xəstəxanamızın kollektivi səhiyyəyə yüksək qağı və diqqətin nəticəsi olaraq növbəti prezident seçkilərində fəal iştirak etmiş, cənab Prezidentimiz İlham Əliyevə əksəriyyətlə səs vermişdir. Çünki Azərbaycanda İlham Əliyevə alternativ siyasətçi yoxdur. Azərbaycanın uğurlarının təminatçısı olan Heydər Əliyev kursu ölkə başçısı tərəfindən müasir dövrün tələbinə uyğun olaraq davam etdirilir.

Bu gün dövlətimiz tərəfindən tibb işçilərinə göstərilən qayğının nəticəsidir ki, həkimlərimiz insanların sağlamlığının keşiyində durur, onlara keyfiyyətli tibbi xidmət göstərirlər. Qeyd edim ki, hər il olduğu kimi bu il də xəstəxananın 26 nəfərdən ibarət həkim briqadası ulu öndərimiz Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ərəfəsində, may ayının 8-11-i tarixində Naxçıvanda olacaqlar. Əhalinin müayinə və müalicəsini təmin etmək üçün həkimlər briqadasına yüksək ixtisaslı cərrahlar daxil edilmişdir. Müayinə və müalicə ilə yanaşı ehtiyacı olan xəstələrdə müxtəlif cərrahi əməliyyatlar da aparılacaq və neçə-neçə xəstəyə şəfa bəxş ediləcəkdir.

Azərbaycan günü-gündən inkişaf edir, bu o deməkdir ki, böyük öndərin parlaq ideyaları yaşayır, qalib gəlir. Heydər Əliyevin şah əsəri olan müasir, müstəqil ölkəmizin nüfuzu beynəlxalq aləmdə ildənilə yüksəlir.

**Telman İBADOV,**
**Mirqasımov adına Respublika Klinik Xəstəxanasının baş həkimi,**
**Azərbaycan Respublikasının əməkdar həkimi,**
**Səhiyyə Nazirliyi kollegiyasının üzvü,**
**Naxçıvan Ali Məclisinin deputatı.**

## Azərbaycan Respublikası Milli Məclisi komitələrinin yeni üzvlərinin seçilməsi haqqında

## Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin 36-cı maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**I.** Azər Camal oğlu Badamov və Eldəniz Adil oğlu Səlimov Milli Məclisin Gənclər və idman komitəsinin, Hüseynbala Fazil oğlu Mirələmov Milli Məclisin Mədəniyyət komitəsinin üzvü seçilsinlər.

**II.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri O.Əsədov**

**Bakı şəhəri, 1 may 2018-ci il.**

# Heydər Əliyev kursu sabitliyə və inkişafa təminatdır

**Tarixin gedişini fitrən hiss emək və onu istiqamətləndirməyi bacarmaq çox nadir şəxsiyyətlərə nəsib olur. Belə şəxsiyyətlər xalqın dövlətçilik ruhunun və hüquqi iradəsinin ifadəçisinə çevrilərək liderlik səviyyəsinə yüksəlirlər. Quru torpaq yağışa möhtac olduğu kimi, xalqın da müdrik rəhbərə ehtiyacı vardır.**



Ulu öndər Heydər Əliyev haqqında, onun Azərbaycan xalqının, milli dövlətçiliyimizin taleyindəki həlledici rolu barədə düşünərkən dünyanın məşhur mütəfəkkirlərinin qənaətlərinin nə qədər düzgün olduğunu bir daha etiraf etmək lazım gəlir. Qədim yunan filosofu Platon deyirdi ki, dünya səadətə yalnız müdriklərin hökmdarlığı ilə qovuşa bilər. Ondan xeyli əvvəl Siseron öndəri olmayan xalqın gücünün dəhşətli nəticələr verə biləcəyini söyləmişdi. Fransa romantizminin görkəmli nümayəndəsi Viktor Hüqo isə şəxsiyyətin tarixdəki rolunu belə səciyyələndirirdi: "Əsl dövlət xadimlərinin seçkin xüsusiyyəti hər bir zərurətdən faydalanmağı, hətta bəzən hadisələrin faciəli gedişini belə dövlətin mənafeyinə yönəldə bilməyi bacarmaqdan ibarətdir". Dahi və müdrik bir şəxsiyyət olaraq Heydər Əliyev azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi özünün mükəmməl siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir.

Ulu öndərimizin siyasi fəaliyyəti haqqında möhtərəm Prezidentimiz İlham Əliyev vurğulayıb: "Heydər Əliyev dahi şəxsiyyətdir, böyük liderdir, uzaqgörən, cəsarətli siyasi xadimdir. O, bütün dövrlərdə Azərbaycan xalqına sədaqətlə xidmət edirdi, xalq üçün yaşayırdı, yaradırdı. Heydər Əliyev Azərbaycana iki dəfə rəhbərlik etmişdir. Hər dəfə Azərbaycanı tənəzzüldən, böhrandan çıxarıb inkişaf yoluna qoymuşdur. Bu, onu göstərir ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq, Heydər Əliyev həmişə ən düzgün siyasət aparmış, Azərbaycan xalqının maraqlarını müdafiə və təmin etmişdir".

Mən ulu öndər haqqında yazdığım çoxsaylı məqalələrdə onun rəhbərliyinin birinci dövründə xalqımızın milli mənlik şüurunun yüksəldilməsi, mənəvi dəyərlərinin zənginləşdirilməsi, iqtisadi fəallığının görünməmiş dərəcədə artırılması, milli kadr potensialının yaradılması istiqamətindəki möhtəşəm fəaliyyəti barədə o dövrün canlı şahidi kimi öz fikir və müşahidələrimi ifadə etməyə çalışmışam. Həmin məqalələri "Qürur doğuran illər" adlandırdığım kitabda toplayaraq bu il - ulu öndərimizin 95 illik yubileyi ərəfəsində nəşr etdirmişəm. Bir daha xatırlatmaq istərdim ki, Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev öz rəhbərlik istedadı ilə xalqın gücünü birləşdirməyi və çox böyük quruculuq işlərinə, iqtisadiyyatın bütün sahələrində vüsətli yüksəlişə istiqamətləndirməyi bacarmışdır. Sovet hakimiyyətinin qayda-qanunları, kommunist ideologiyasının tələbləri respublikada milli inkişafı müəyyən qədər buxovlasa da, Heydər Əliyev özünəməxsus siyasi məharətilə doğma xalqının gələcəyinə hədəflənmiş, bugünkü müstəqilliyimiz üçün bünövrə olan addımlar atmışdır. Bu baxımdan dövlət idarəçiliyində, hərbi sahədə milli kadr potensialının yaradılması ulu öndərimizin həmin illərdəki fəaliyyətində xüsusi yer tutmuşdur.

Mən və həmyaşıdlarım şahidik ki, istər 1969-1982-ci illərdə respublikamıza rəhbərlik etdiyi, istərsə də 1982-1987-ci illərdə ittifaq dövlətinin rəhbərliyində ən yüksək vəzifələrdən birində çalışdığı dövrlərdə Heydər Əliyev milli mənafelərə əsl övlad sədaqəti ilə xidmət göstərmişdir. Azərbaycanlı olması ilə daim fəxr edən ulu öndərimiz özünün şərəfli fəaliyyəti ilə xalqımızın adını ucaltmış, ona dünyada şöhrət qazandırmışdır.

1991-ci ildə öz suverenliyini bərpa edən Azərbaycanın bu gün demokratik və bəşəri dəyərlərə sadiq müstəqil bir dövlət kimi formalaşması ulu öndərimizin müstəsna xidməti, 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə onun respublikada siyasi hakimiyyətə qayıdışının bəhrəsidir. Yenicə müstəqilliyinə qovuşmuş dövlətimizin sükanını öz qüdrətli əllərinə almaqla Heydər Əliyev xalqın birliyini təmin etmiş, ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş üçün zəmin yaratmış, milli dövlətçilik ideyalarını ardıcıllıqla həyata keçirmişdir.

Müasir Azərbaycanda elə bir sahə, elə bir istiqamət, elə bir uğur və nailiyyət yoxdur ki, orada Heydər Əliyev dühasının bəhrəsi, Heydər Əliyev imzası olmasın. Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyevin XX əsrdə totalitarizmin Azərbaycana qarşı törətdiyi faciələrin davamı kimi qanlı 20 Yanvarı xalqımız əleyhinə hərbi, siyasi və mənəvi təcavüz kimi qiymətləndirməsi isə onun ömrü boyu sadiq qaldığı milli məfkurəsinin və yüksək vətənpərvərliyinin yeni siyasi şəraitdə təcəssümü idi.

Belə bir tarixi həqiqəti unutmamalıyıq ki, Azərbaycanın dövlət müstəqilliyi 1991-ci il oktyabrın 18-də bərpa olunsa da, müasir dövlətçiliyimizin əsası məhz ulu öndərin respublikada siyasi hakimiyyətə qayıdışından, onun rəhbərliyi altında etdiyi qurtuluş hərəkatının qələbəsindən sonra qoyulmuşdur. "Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir", - deyən Heydər Əliyev öz parlaq zəkası, müdrik siyasəti ilə bu müstəqilliyi qoruyub saxlamağa, onun dönməzliyini təmin etməyə nail olmuşdur. Əminliklə deyə bilərik ki, həmin dövrdə baş verən hadisələrə Heydər Əliyev dühası nüfuz etməsəydi, Azərbaycan öz müstəqilliyini və dövlətçiliyini qoruyub saxlaya bilməyəcəkdi. Mövcud siyasi, iqtisadi və sosial böhran müstəqilliyimizin ilk illərində Azərbaycanı vətəndaş müharibəsi həddinə çatdırdığı bir dövrdə Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gəldiyi gün - 1993-cü ilin 15 iyunu tariximizə Qurtuluş Günü kimi daxil olmuşdur. Bu qurtuluş qısa bir zamanda özünü nəinki siyasətdə, həm də iqtisadiyyatda, təhsildə, mədəniyyətdə və insanların gündəlik real həyatında büruzə vermişdir.

Ulu öndərin siyasi hakimiyyətə qayıdışı Azərbaycanı hərtərəfli tərəqqi yoluna çıxardı. Heydər Əliyev müstəqil dövlətimizə rəhbərlik etdiyi dövrdə ictimai-siyasi sabitlik, güclü iqtisadiyyat, möhkəm sosial təsisatlar yaratmağa, nizami ordu qurmağa, ölkəmizin beynəlxalq aləmə inteqrasiyasını təmin etməyə nail oldu. Bir daha möhtərəm Prezidentimiz cənab İlham Əliyevin bu barədə fikirlərinə isnad etmək istərdim. Dövlətimizin başçısı deyib: "1993-2003-cü illər sabitlik, inkişaf illəri olmuşdur. Heydər Əliyev bir daha göstərdi ki, ən ağır, böhranlı vəziyyətdən çıxış yolu var. O da düşünülmüş siyasətdir, cəsarətdir, müstəqil siyasət və addımlardır. Heydər Əliyev 2003-cü ildə Azərbaycan xalqına son müraciətində gördüyü işlər haqqında danışmışdır və eyni zamanda, demişdir ki, hələ onun bir çox planları var. O, öz ümidini ifadə etmişdir ki, onun görə bilmədiyi işləri onun davamçıları görəcək və belə də oldu".

Bu gün biz ulu öndərin 95 illik yubileyini qeyd edərkən ulu öndərin ümid və arzularının doğrulmasına görə hədsiz sevinc və fərəh hissi keçirir, Heydər Əliyev ideyalarını qətiyyətlə, ardıcıllıqla gerçəkləşdirən, xalqımızın sevimli lideri möhtərəm Prezidentimiz İlham Əliyevin müstəqil Azərbaycanı yeni zirvələrə doğru apardığını görür və bundan qürur duyuruq.

Ümummilli lider Heydər Əliyevin siyasi müdrikliyinin və uzaqgörənliyinin bəhrələrindən olan Yeni Azərbaycan Partiyasının namizədi kimi cənab İlham Əliyevin bu il aprelin 11-də keçirilən Prezident seçkilərində möhtəşəm qələbə qazanması xalqımızın öz şanlı müstəqillik tarixinə sadiqliyinin bir daha nümayişi oldu. Bu qələbə cənab İlham Əliyevin apardığı siyasətə xalqın dərin və yenilməz inamının, etibar və etimadının mühüm göstəricisidir. Məhz Heydər Əliyev siyasətini uğurla davam etdirməsi nəticəsində Azərbaycanda sabitlik hökm sürür və davamlı inkişaf təmin edilir. Yeni Azərbaycan Partiyasının bu il keçirilmiş VI qurultayında cənab İlham Əliyev demişdir: "Bizim son illər apardığımız siyasət özünü tam doğrultdu, Azərbaycanda sabitlik mövcuddur. Qeyd etdiyim kimi, sabitlik hər bir inkişafın əsas şərtidir. Biz görürük ki, son 5-6 il ərzində dünyanın müxtəlif yerlərində, bizim regionumuzda çox ciddi, narahatedici proseslər gedir. Qanlı toqquşmalar, müharibələr, vətəndaş müharibələri, ölkələrin bir-birinin işinə kobudcasına qarışması, hərbi müdaxilələr - bütün bunlar bizim gözümüzün önündə baş verən məsələlərdir. Biz görürük və bütün bəşəriyyət əyani şəkildə görür ki, sabitlik pozulduqda heç bir inkişafdan söhbət gedə bilməz. Bu, xalqlara, ölkələrə böyük bəlalar, faciələr gətirir".

Sabitlik və inkişafın təməlində xalqın istək və mənafeyinə cavab verən düzgün siyasət dayanır. Xalq-iqtidar birliyi Azərbaycanda sabitliyi şərtləndirən əsas amildir, bu birliyin mövcudluğu ölkəmizin sosial-iqtisadi yüksəlişini, xalqımızın rifahını təmin edir, gələcəyimizi müəyyənləşdirir.

Müstəqil dövlətimizin xarici siyasəti də Heydər Əliyev ideya, strategiya və ənənələrinə söykənir, ölkəmizin dünya birliyindəki mövqeyinin möhkəmləndirilməsinə xidmət edir. Möhtərəm Prezidentimiz İlham Əliyevin apardığı məqsədyönlü, aydın məramlı xarici siyasət nəticəsində Azərbaycan bu gün beynəlxalq birlik tərəfindən çox böyük rəğbətə layiq olan dövlət kimi tanınır, dostlarının, onu dəstəkləyən ölkələrin sayı artır. Bunun ən bariz göstəricisi bir müddət əvvəl Azərbaycanın BMT Təhlükəsizlik Şurası üzvlüyünə namizədliyinin 155 ölkə tərəfindən dəstəklənməsi olmuşdur. Beynəlxalq aləmin mütləq əksəriyyətinin dəstəyini qazanması müstəqil dövlətimizə qloballaşan dünyada öz mövqeyini daha qətiyyətli şəkildə ifadə etmək imkanı verir.

Dövlətimizin başçısının uğurlu müstəqil xarici siyasəti, ölkəmizin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyinin beynəlxalq arenada dəstək qazanmasını da təmin edir. BMT, ATƏT, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər bütün aparıcı təşkilatlar münaqişə ilə bağlı ölkəmizin mövqeyini dəstəkləyən qətnamələr, qərarlar qəbul etmişlər. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır.

Ulu öndər Heydər Əliyevin ən ümdə arzularından biri, təbii ki, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, Qarabağ probleminin öz həllini tapması, qaçqın və köçkün həmvətənlərimizin öz doğma yurd-yuvalarına qaytarılması idi. Münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz həllini tapması üçün cənab Prezident İlham Əliyev çox böyük səylər göstərir, bütün imkanlardan, artan gücümüzdən, iqtisadi potensialımızdan, siyasi imkanlarımızdan, hətta hərbi gücümüzdən istifadə edərək təcavüzkar Ermənistanın işğalçılıq siyasətinə son qoymağa çalışır. Biz dövlətimizin başçısının bu yöndəki fəaliyyətinin uğurla nəticələnəcəyinə əminik. Bununla yanaşı, möhtərəm Prezidentimiz bir məsələni də daim qeyd edir: biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir.

İki il əvvəl Azərbaycan ordusu gücünü düşmənə göstərdi. Şanlı tariximiz olan Aprel döyüşlərindəki böyük qələbə nəticəsində Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının torpaqlarının bir hissəsi işğalçılardan azad edildi. İndi bu torpaqlara həyat qayıdır, bu torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu hərbi qələbə Azərbaycan xalqının gücünün, yenilməz ruhunun göstəricisidir və heç şübhəsiz, üçrəngli bayrağımız tezliklə Qarabağın hər bir guşəsində dalğalanacaqdır.

Bir neçə gündən sonra biz Şərqdə ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyini qeyd edəcəyik. Bununla əlaqədar cənab Prezident İlham Əliyevin imzaladığı Sərəncamda göstərildiyi kimi, Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı. Bəli, məhz Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində cümhuriyyət ideyaları bu gün yaşayır və inkişaf etdirilir.

Xalqımız ulu öndərimizin 95 illik yubileyini bütün sahələrdə qazanılmış nailiyyətlərlə qarşılayır.

Möhtərəm Prezidentimiz İlham Əliyev bir neçə gün əvvəl andiçmə mərasimində demişdir: "Biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Biz Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik".

Ulu öndər Heydər Əliyev də məhz bunu arzulayırdı. Bu arzuları həyata keçirmək üçün dövlətimizin başçısının konkret proqramları, planları vardır. Həm beynəlxalq məsələlərlə, həm də bölgələrimizin inkişafı, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı olan bu proqramların dövlət başçısı cənab İlham Əliyevin güclü siyasi iradəsi sayəsində gerçəkləşəcəyinə əminik. On beş il əvvəl ilk dəfə prezident seçilərkən o, xalqa müraciətində demişdir ki, əgər xalq etimad göstərərsə, mən ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Xalqımız öz gənc liderinə inandı, dəstəklədi, ona müstəqil dövlətimizin taleyini etibar etdi və doğru seçiminin nəticəsini gördü. Azərbaycanın bugünkü hərtərəfli inkişafının təminatı məhz Heydər Əliyev yoluna sadiqlikdir və bu istiqamətin yeganə düzgün yol olduğunu müstəqillik tariximiz əyani şəkildə sübuta yetirmişdir.

**Tağı ƏHMƏDOV,**
**YAP Yasamal Rayon Təşkilatının sədri.**

# "İlham Əliyev. Elektron külliyyat" adlı yeni resursun təqdimatı olub

**Mayın 1-də Prezident Kitabxanasında Azərbaycan Prezidenti İlham Əliyevin həyat və fəaliyyətini əks etdirən "İlham Əliyev. Elektron külliyyat" adlı yeni elektron resursun təqdimatı olub.**

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən kitabxananın direktoru Mayıl Əhmədov bildirib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş müasir müstəqil Azərbaycanın daxili və xarici siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin 15 illik fəaliyyəti nəticəsində yaranmış çox nəhəng sənəd kütləsini yalnız müasir informasiya texnologiyalarının son nailiyyətlərini tətbiq etməklə geniş oxucu auditoriyası üçün əlçatan etmək mümkündür. Məhz bu məqsədlə yaradılmış, sadə axtarış forması olan həmin resursda toplanmış materiallardan istənilən şəxs asanlıqla istifadə edə bilər. Dörd fəsildən ibarət resursda dövlətimizin başçısının fəaliyyətinə dair mətbuatda çap olunmuş materialların tam mətni ilə yanaşı, biblioqrafik informasiya da toplanıb.

Resursun ikinci fəslində istifadəçilər çox sadə axtarışla Prezident İlham Əliyevin 2003-2018-ci illəri əhatə edən 1370 çıxışının, nitqinin, müsahibəsinin, bəyanatının tam mətnini əldə edə bilərlər. Bu fəslin başqa bölməsinin materiallarının təhlili göstərir ki, çox uğurlu xarici siyasət xətti formalaşdıran Prezident İlham Əliyev 2003-2018-ci illərdə dünyanın 50 ölkəsinə 259 dəfə səfər edib. Bu səfərlərin 31-i Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlıdır. Həmin səfərlərin tam xronikası, Prezident İlham Əliyevin xarici siyasətlə bağlı çıxışlarının, nitqlərinin, müsahibələrinin tam mətnləri, xarici siyasətlə əlaqədar qanun, fərman və sərəncamlar, eləcə də xarici ölkələrə səfərlərə dair materiallar "Xarici siyasət fəaliyyəti" adlı bölmədə toplanıb.

Dövlətimizin başçısının regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul etdiyi dövlət proqramlarına aid bütün materiallar da resursun ayrıca bir bölməsində yerləşdirilib. Bu bölmənin materiallarından görünür ki, Prezident İlham Əliyev yalnız 2014-2018-ci illəri əhatə edən sonuncu Dövlət Proqramı çərçivəsində 57 rayonda 86 dəfə səfərdə olub və bu Proqramın icrası ilə bağlı 7 Fərman, 305 Sərəncam imzalayıb. Proqramın başa çatmasına hələ 8 ay qalır, yəni, regionlara səfərlərin və onların sosial-iqtisadi inkişafına dair sənədlərin sayı təbii ki, artacaq.

Bakı şəhəri və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair dövlət proqramları da külliyyatda ayrı bölmədə verilib. İnteraktiv olan bu bölmənin materiallarından görünür ki, Prezident İlham Əliyev Bakı şəhəri və onun qəsəbələrinin müxtəlif sahələr üzrə inkişafına dair 107 fərman və sərəncam imzalayıb.

Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində yaranan nəhəng rəsmi sənəd kütləsindən oxucuların istifadəsini asanlaşdırmaq məqsədilə Prezident Kitabxanasında digər elektron resurslar da yaradılır. Dövlətimizin başçısının imzaladığı və dövri mətbuatda nəşr olunmuş 3616 qanun, 3662 fərman və 9740 sərəncamın, eləcə də Nazirlər Kabinetinin 2003-2018-ci illəri əhatə edən 4172 qərarının elektron biblioqrafik göstəriciləri belə resurslardandır.

Mayıl Əhmədov bildirib ki, Prezident İlham Əliyevin həyat salnaməsini və dövlət başçısı kimi ölkənin sosial-iqtisadi və humanitar sahələrdə dinamik inkişafını, beynəlxalq aləmdə nüfuzunun yüksəldilməsi istiqamətində gördüyü işlərin miqyasını özündə əks etdirən xronologiyanın, nitqlərin, çıxışların, müsahibələrin tam mətnlərinin, haqqında yazılan kitab və məqalələrin elektron versiyalarının və onun biblioqrafiyasının vahid elektron məkanda toplanılması və külliyyat şəklində təqdim edilməsi istifadəçilərin işini xeyli dərəcədə asanlaşdırır və daha əlçatan edir.

Qeyd edilib ki, "İlham Əliyev. Elektron külliyyat" tammətnli elektron nəşrinin birinci fəsli "Həyat və fəaliyyəti" adlanır və beş bölmədən ibarətdir.

"Bioqrafiya" adlanan birinci bölmədə qısa bioqrafik məlumat verilib.

"Xronologiya" adlanan bölmə iki yarımbölmədən ibarətdir. Birinci yarımbölmədə Prezident İlham Əliyevin həyat və fəaliyyətinin 1961-2003-cü illər dövrünü əks etdirən xronologiya öz əksini tapır. Bu bölmədə İlham Əliyevin prezidentliyə qədərki dövrdə Milli Olimpiya Komitəsinin prezident və Dövlət Neft Şirkətinin vitse-prezidenti kimi fəaliyyəti xronoloji ardıcıllıqla əks etdirilib.

Dövlətimizin başçısının 2003-2018-ci illərdə prezidentlik dövrünü əhatə edən hadisələrin xronologiyası isə ayrı-ayrı illər üzrə ikinci yarımbölmədə toplanılıb.

"Təltiflər" bölməsində Prezident İlham Əliyevin 2003-cü ildən etibarən layiq görüldüyü yüksək mükafatların və fəxri adların siyahısı verilib. Həmin bölmənin materialları "Ordenlər", "Medallar və fəxri nişanlar", "Fəxri elmi adlar", "Fəxri adlar və mükafatlar", "İdman təşkilatlarının mükafatları" başlıqları altında təqdim edilir.

Prezident İlham Əliyevin 2003-cü ildən etibarən dövlət başçısı kimi müxtəlif tədbirlərdə, beynəlxalq təşkilatların tribunalarında etdiyi çıxışlardan və nitqlərdən seçilmiş fikirlər "İqtibaslar" başlığı altında 26 istiqamətdə toplanılıb.

"Məşhurların fikirləri" bölməsində bir sıra dövlət başçılarının, görkəmli dövlət xadimlərinin və siyasi xadimlərin, nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərinin dövlətimizin başçısı haqqında söylədikləri qiymətli fikirlər toplanılıb.

Tammətnli elektron nəşrin ikinci fəsli "Azərbaycan Respublikasının Prezidenti" adlanır. Bu fəsil 7 bölmədən ibarətdir. Birinci bölmə "Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları" adlanır. Bu bölmədə 2003-2018-ci illər ərzində Prezident İlham Əliyevin nitqlərinin, çıxışlarının, məruzələrinin, müsahibələrinin və bəyanatlarının tam mətnləri illər üzrə ayrı-ayrı yarımbölmələrdə istifadəçilərin ixtiyarına verilir.



İkinci bölmə isə "Gündəlik fəaliyyətin xronikası" adlanır.

Üçüncü bölmə "Xarici siyasət fəaliyyəti" adlanır və dörd fəsildən ibarətdir. Birinci fəsil "Xarici siyasət fəaliyyətinin xronikası", ikinci fəsil "Xarici siyasətə dair nitqlər, çıxışlar, bəyanatlar, müsahibələr", üçüncü fəsil "Xarici siyasətlə bağlı qanun, fərman və sərəncamların xronikası", dördüncü fəsil isə "Xarici ölkələrə səfərlərin fotoxronikası" adlanır. Bu bölmədə əsasını ümummilli lider Heydər Əliyevin qoyduğu və Azərbaycan Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi xarici siyasət kursunun prioritetləri, həyata keçirilən balanslaşdırılmış siyasi xəttin bütün məqamları əhatə olunur.

Dördüncü bölmə "Neft diplomatiyası" adlanır. Bu bölmənin özü də fəsillərə bölünür. Birinci fəsil "İlham Əliyev - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti (30 aprel 1994 - 4 avqust 2003)" adlanır. İkinci fəsil "İlham Əliyev - Azərbaycan Respublikasının Baş naziri (5 avqust 2003 - 15 oktyabr 2003)" adlanır. Üçüncü fəsil isə "İlham Əliyev - Azərbaycan Respublikasının Prezidenti (15 oktyabr 2003-cü ildən)" adlanır. Bu bölmədə əsasını ümummilli lider Heydər Əliyevin qoyduğu və hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən neft strategiyasının 1994-cü ildən etibarən reallaşması istiqamətində görülən işlər öz əksini tapıb.

Beşinci bölmə isə "Olimpiya hərəkatı" adlanır. Bu bölmə doqquz fəsildən ibarətdir. Birinci fəsil "Azərbaycanda idman və Olimpiya Hərəkatı", ikinci fəsil "Azərbaycan Milli Olimpiya Komitəsi", üçüncü fəsil "Azərbaycan idmançılarının Olimpiya Oyunlarında iştirakı", dördüncü fəsil "Bakı-2015" İ Avropa Oyunları", beşinci fəsil "İslam Həmrəyliyi Oyunları", altıncı fəsil "MOK-un quruculuq fəaliyyəti", yeddinci fəsil "2012-ci il "İdman İli", səkkizinci fəsil "Beynəlxalq yarışlar" adlanır. "Elektron kitablar" adlanan doqquzuncu fəsildə isə idmanla və Olimpiya Hərəkatı ilə bağlı kitabların elektron versiyaları toplanılıb.

Altıncı bölmə "Regionların sosial-iqtisadi inkişafı" adlanır. Bu bölmə Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən 2004-2008-ci illər, 2009-2013-cü illər və 2014-2018-ci illər dövlət proqramlarını əhatə edir. Ayrı-ayrılıqda təqdim edilən dövlət proqramları haqqında materiallar "Rəsmi sənədlər", "Dövlət tədbirləri" və "Azərbaycan Prezidenti İlham Əliyevin regionlara səfərləri" başlıqları altında toplanılaraq istifadəçilərə təqdim edilir.

İkinci fəslin sonuncu bölməsi isə "Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı" adlanır. Bu bölmənin materialları "Dövlət proqramları", "Rəsmi sənədlər" və "Dövlət tədbirləri" başlıqları altında qruplaşdırılıb. Dövlət proqramları başlığı altında 2006-2007-ci illəri əhatə edən tədbirlər proqramı, 2011-2013-cü illəri və 2014-2016-cı illəri əhatə edən Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının materialları toplanılıb. Bu bölmədə, həmçinin Bakı şəhərinin və onun rayonlarının sosial-iqtisadi inkişaf istiqamətlərinə dair axtarış sistemi tətbiq edilib.

Tammətnli elektron nəşrin üçüncü - "İnkişaf - məqsədimizdir" fəslində Prezident İlham Əliyevin "İnkişaf - məqsədimizdir" çoxcildliyinin (56 cild) bütün nəşrlərinin elektron versiyaları toplanılıb. Bu cildlərdə dövlətimizin başçısının daxili və xarici siyasətə, iqtisadi potensialın möhkəmlənməsinə, ordu quruculuğuna, regionların sosial inkişafına və ictimai-siyasi həyatın digər sahələrinə dair nitqləri, çıxışları, görüşləri haqqında materiallar və məktublar öz əksini tapıb.

Elektron nəşrin sonuncu fəsli "Biblioqrafiya" adlanır və "Kitablar" və "Məqalələr" bölmələrindən ibarətdir. "Kitablar" bölməsində Prezident İlham Əliyevin müəllifi olduğu və onun haqqında yazılan kitabların Azərbaycan və rus dillərində biblioqrafik təsvirləri verilib. "Məqalələr" bölməsində isə Prezident İlham Əliyev haqqında yazılan məqalələrin Azərbaycan, rus və ingilis dillərində biblioqrafiyası öz əksini tapıb.

"İlham Əliyev. Elektron külliyyat" nəşri mütəmadi olaraq yenilənir.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev deyib ki, təqdim olunan layihə müasir Azərbaycanın bugünkü həyatı ilə sıx bağlıdır, onun dinamik inkişafını əks etdirən çox zəngin sistemli mənbədir. Aydındır ki, biz son illərdə Azərbaycan Respublikasının sosial-iqtisadi, ictimai-siyasi, mədəni həyatında yüksək inkişaf dinamikasından bəhs edirik. Müxtəlif müzakirələrdə Azərbaycan Respublikasının həyatının rəngarəng sahələrinə diqqət yetiririk və oradakı prosesləri təhlil edir, ictimaiyyətin diqqətinə çatdırır, beynəlxalq aləmə çıxarırıq. Bu hadisələrin ahəngi, cərəyan edən proseslər bu gün Azərbaycan vətəndaşının marağına uyğun şəkildə aparılan dövlət siyasətinin bariz təzahürüdür. Təsadüfi deyil ki, ölkəmizdə yaranmış ab-havanın, cərəyan edən proseslərin məntiqi nəticəsi bu il aprelin 11-də keçirilmiş prezident seçkilərində Azərbaycan xalqının mütləq əksəriyyətinin öz səsini yenidən Prezident İlham Əliyevə verməsi oldu. İlham Əliyevin yenidən Prezident seçilməsi ilə ölkəmizdə həyata keçirilən siyasi xəttin bundan sonra da ardıcıl şəkildə davam etdiriləcəyinə hər birimizdə əminlik yarandı. Bu gün ölkə həyatının ictimai-siyasi, sosial-iqtisadi, mədəni sahələrinə diqqət yetirdikdə görürük ki, aparılan köklü islahatların məntiqi nəticəsi kimi gündən-günə daha da möhkəmlənən ictimai-siyasi sabitlik, sosial-iqtisadi dəyişikliklər əhalinin əhval-ruhiyyəsinə də müsbət təsir edir. Azərbaycanın həyatının hər hansı bir sahəsini öyrənmək, ona qiymət vermək istəyən tədqiqatçı-ekspert, istər-istəməz dövlət siyasətinin mahiyyətini araşdırmalıdır. Dövlət siyasətinin hazırlanıb həyata keçirilməsində əsas müəllif, təşəbbüskar və onun ilk mühüm icraçısı təbii ki, Azərbaycan Prezidenti İlham Əliyevdir. Onun fəaliyyətinə diqqət yetirmədən, ölkədə aparılan dövlət siyasətinin aspektlərini öyrənmədən Azərbaycanın həyatının müxtəlif sahələri ilə bağlı fikir yürütmək təbii ki, qeyri-mümkündür. Bu baxımdan təqdimatı keçirilən portal çox mühüm mənbə rolunu oynayır. Çünki qeyd edildiyi kimi, bu portalda Azərbaycan Prezidentinin fəaliyyətinin bütün sahələri öz əksini tapıb, sistemləşdirilib. Burada istər daxili siyasət, istər xarici siyasət, neft diplomatiyası, qeyri-neft sektoru, regionların inkişafı, idman, mədəniyyət, təhsil və s. sahələrlə bağlı bütün materiallar xronoloji ardıcıllıqla sistemli şəkildə toplanılıb.




Ərəstun Mehdiyev qeyd edib ki, bu gün Azərbaycan regionun lider dövlətidir. Ölkəmiz qlobal layihələrin reallaşmasında, son illərdə daha intensiv xarakter alan beynəlxalq tədbirlərin keçirilməsində mühüm rol oynayır. Bütün bunlar, əlbəttə ki, dövlətimizin başçısının təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən layihələr və tədbirlərdir.

Prezident Administrasiyasının rəsmisi deyib ki, Azərbaycanı tanımaq, həqiqətən də öyrənib obyektiv şəkildə təqdim etmək istəyən tədqiqatçılarla, ekspertlərlə yanaşı, bir çox hallarda ölkəmizə qarşı qərəzli mövqedən çıxış edən, məlumatları təhrif edən, onlardan öz maraqları naminə istifadə etməyə cəhd göstərən insanlar da var. Buna görə də biz çalışmalıyıq ki, informasiya mübarizəsində Azərbaycanla bağlı dolğun, obyektiv informasiyanı daha çox təqdim edək. Burada, əlbəttə ki, mətbuatla yanaşı, alimlərimizin, tədqiqatçılarımızın da üzərinə böyük məsuliyyət düşür.

Ərəstun Mehdiyev əmin olduğunu bildirib ki, Prezident Kitabxanasının əvvəlki layihələri kimi, bu portal da ölkəmizin həyatının müxtəlif sahələrinin öyrənilməsində mühüm rol oynayacaq.

**AZƏRTAC**

# Mir Cəlal Paşayev ədəbiyyatşünas alim kimi elmimizə dəyərli töhfələr verib









**XX əsr Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində özünəməxsus yer tutan böyük ədib Mir Cəlal Paşayev bütün fəaliyyətini, yaradıcılığını mədəniyyətimizin, ədəbiyyatımızın, təhsilimizin inkişafına sərf edib. Mir Cəlal Paşayevin mühüm həyati problemlər qaldıran, vacib ictimai-siyasi və mənəvi-əxlaqi məsələləri əks etdirən realist əsərlərində əsas tədqiq və inikas obyekti insan, onun mənəvi dünyasıdır. Xalqımızın gözəl, zəngin mənəvi dəyərlərinin təbliği yazıçının yaradıcılığında mühüm yer tutur. Onun hekayələri, romanları və digər janrlarda olan əsərləri həm mövzu zənginliyinə, həm də dil və üslubuna görə böyük maraq doğurur. Dərin zəka sahibi olan Mir Cəlal Paşayev həm görkəmli alim, böyük yazıçı və pedaqoq, həm də nurlu şəxsiyyət kimi tanınıb.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər mayın 1-də Bakı Dövlət Universitetində (BDU) görkəmli yazıçı, ədəbiyyatşünas alim və pedaqoq Mir Cəlal Paşayevin anadan olmasının 110-cü ildönümü ilə əlaqədar keçirilən respublika elmi-praktik konfransında səsləndirilib.

Tanınmış dövlət və elm xadimləri, Milli Məclisin deputatları, ali təhsil müəssisələrinin rektorları, universitetin müəllim və tələbələrinin iştirak etdikləri konfransın plenar iclasında BDU-nun rektoru, akademik Abel Məhərrəmov böyük ziyalı Mir Cəlal Paşayevin zəngin irsindən, Azərbaycan elminin, təhsilinin inkişafında və yüksəkixtisaslı kadrların hazırlanmasında mühüm xidmətlərindən, o cümlədən nəcib insani keyfiyyətlərindən danışıb. Rektor BDU-nun tarixən vətənpərvər ziyalıların fədakar əməyi sayəsində yetirdiyi ictimai-siyasi, elm və mədəniyyət xadimləri ilə Azərbaycanın mövcud simasının təşəkkülünə böyük töhfələr verdiyini qeyd edib. A.Məhərrəmov 1936-cı ildən ömrünün sonunadək BDU-da çalışan Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı", "XX əsr Azərbaycan ədəbiyyatı", "Azərbaycanda ədəbi məktəblər", "Ədəbiyyatşünaslığın əsasları" adlı fundamental əsərlərinin ədəbiyyatşünaslıq elminin qızıl nüsxələri olmasından, onun Azərbaycan elminin və təhsilinin inkişafındakı xidmətlərindən bəhs edib. Mir Cəlal Paşayevin nəcib insani keyfiyyətlərini, ailəsinə, övladlarına bağlılığını qeyd edən rektor alimin dillər əzbəri olan "Həyatımda yaratdığım ən böyük əsər ailəmdir" kəlamını xatırladıb.

Təhsil naziri Ceyhun Bayramov Mir Cəlal Paşayevin ölkəmizdə ədəbiyyatın, elmin, xüsusilə təhsilin inkişafındakı müstəsna xidmətlərindən danışıb. Nazir ölkəmizin hər yerində ədibin 110 illiyinə həsr olunan yubiley mərasimlərinin təntənə ilə qeyd edilməsini böyük sənətkarın yaradıcılığına, onun ədəbi irsinə göstərilən diqqət və qayğının təzahürü kimi dəyərləndirib.

BDU-nun filologiya fakültəsinin dekanı, dosent Elçin Məmmədov "Mir Cəlal Paşayevin həyatı və yaradıcılığı" mövzusunda məruzə ilə çıxış edib, görkəmli alimin keşməkeşli ömür yolundan söz açıb. Məruzədə Mir Cəlal Paşayevin yazıçı kimi Azərbaycan ədəbiyyatı tarixindəki əvəzolunmaz mövqeyindən və ədəbiyyatşünas alim kimi elmimizə verdiyi dəyərli töhfələrdən bəhs edilib.

Daha sonra Milli Məclisin deputatı, akademik Nizami Cəfərov, Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva Mir Cəlalın alim və müəllim kimi şəxsi keyfiyyətlərindən, yaradıcılığının özəlliklərindən danışıb, yazıçı ilə bağlı xatirələrini bölüşüblər.

Sonda alimin ailəsi adından oğlu, "ADA" Universitetinin rektoru, professor Hafiz Paşayev çıxış edərək atası ilə bağlı xatirələrini bölüşüb, konfransın təşkilinə görə rektor, akademik Abel Məhərrəmova, o cümlədən əməyi keçən hər kəsə təşəkkürünü bildirib.

Tədbirdə Mir Cəlal Paşayevin həyat və yaradıcılığına həsr edilən "Üç zirvənin fatehi" filmi nümayiş olunub.

Qeyd edək ki, elmi konfransın materiallar toplusunda Mir Cəlal Paşayevlə bağlı respublikanın müxtəlif elm və ali təhsil müəssisələrindən təqdim olunmuş 50-dək məqalə yer alıb.

AZƏRTAC

# Professor Nərgiz Paşayevanın Oksford Universitetinin Bodleyn Kitabxanasının direktoru Riçard Ovendenlə görüşü olub

**M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, AMEA-nın həqiqi üzvü, professor Nərgiz Paşayeva aprelin 23-də dünyanın ən qədim və zəngin kitab məbədlərindən sayılan Oksford Universitetinin Bodleyn Kitabxanasının (https://www.bodleian.ox.ac.uk) direktoru, Amerika Filosoflar Cəmiyyətinin üzvü, Londonun Antik Kitab və Nadir Əşyaların Qorunması Cəmiyyətinin üzvü Riçard Ovenden və Bodleyn Kitabxanasının inkişaf departamentinin rəhbəri Eleyn Gallagher ilə işgüzar görüş keçirib.**



AZƏRTAC xəbər verir ki, Bodleyn Kitabxanasının rəhbəri Riçard Ovenden (https://www.bodleian.ox.ac.uk/about/management/biographies/richard-o enden) 2015-ci ilin yazında Amerika Filosoflar Cəmiyyətinin illik yığıncağında bu quruma üzv seçilmiş 27 görkəmli elm, təhsil, mədəniyyət və ictimai xadimdən biridir. Corc Vaşinqton, Tomas Cefferson, XX əsrdə isə Albert Eynşteyn və Robert Frost kimi tanınmış şəxsiyyətlər bu Cəmiyyətin üzvləri olublar. Xatırladaq ki, Amerika Filosoflar Cəmiyyəti 1743-cü ildə Benjamin Franklin tərəfindən "faydalı məlumatları təbliğ etmək" məqsədilə yaradılıb və ABŞ-da ən qədim elmi cəmiyyətlərdəndir.

Riçard Ovenden Darem Universitetinin, Lordlar Palatasının, Edinburq Universitetinin kitabxanalarında və Şotlandiyanın Milli Kitabxanasında müxtəlif vəzifələrdə çalışıb. O, 2003-cü ildən Oksford Universitetinin Bodleyn Kitabxanasında fəaliyyətə başlayıb. 2011-2014-cü illərdə direktor müavini, 2014-cü ildən isə Bodleyn Kitabxanasının rəhbəri vəzifəsini tutur.

Qeyd edək ki, Oksfordda yerləşən və dünyanın ən böyük kitab məbədlərindən olan məşhur Bodleyn Kitabxanası beş böyük binada yerləşir və onun bir çox müxtəlif şöbələri var. Bodleyn Kitabxanası sahəsinə və ölçülərinə görə İngilis Kitab Depozitariyasından sonra ikincidir. Vatikan Kitabxanası ilə yanaşı, Oksford Universitetinin bu kitabxanası Avropanın ən qədim kitabxanasıdır. Maraqlıdır ki, Oksfordun məşhur Bodleyn Kitabxanasının əsası Tomas Bodli tərəfindən deyil, XIV əsrdə yepiskop Tomas Kobhem tərəfindən qoyulub. 1327-ci ildə Vuster yepiskopu Tomas Kobhem Oksford Universitetinin Müqəddəs Məryəm Kilsəsində kitabxana yaradıb. Buradakı ilk kitab kolleksiyası zəngin deyildi, lakin o zaman kitablar çox qiymətli olduğundan, tələbələr onları özləri ilə aparmağa çalışırdılar. Kobhem o dövr üçün adi hesab olunan bir təcrübəni tətbiq etməyi, yəni, kitabların rəflərə zəncirlənməsini təklif etdi. XV əsrin ortalarında Kral V Henrinin qardaşı Gloster hersoqu Hamfri kitabxanaya təxminən 300-ə yaxın qədim yazı və əlyazma hədiyyə etdi. Bundan sonra aydın oldu ki, kilsənin artıq bütün kitab kolleksiyalarını yerləşdirməyə imkanı çatmır və bu fondu yerləşdirmək üçün 1488-ci ildə yeni bir bina ayrıldı. Bu günə qədər bura hersoq Hamfri kitabxanası adlandırılır. Hersoq Hamfri Kitabxanası Bodleyn Kitabxanasının ən qədim oxu zallarından biridir. XVI əsrin sonunda kitabxana tamamilə bağlanmaq təhlükəsi ilə üzləşdi. Kral VI Edvard kitab kolleksiyalarını və hətta kitabxananın mebelini belə satmışdı. Kolleksiyada yalnız bir zamanlar Tomas Kobhem tərəfindən bağışlanan 3 cild qalmışdı. 1598-ci ildə kitabxananın dirçəlişi başlandı. Məhz o zaman Merton Kollecində yunan dilindən dərs demiş, Britaniya parlamentinin keçmiş üzvü, İngiltərənin sabiq Dövlət katibi Tomas Bodli kitabxananın inkişafına dəstək vermək təklifi ilə universitetin vitse-kanslerinə məktub yazdı. Ser Bodli kitab saxlanan binanı tamamilə yenidən qurdu, şəxsən bir neçə cildlik kitabları buraya hədiyyə etdi və 1602-ci ildə Bodleyn Kitabxanası Oksfordda rəsmən açıldı.

Bu gün Bodleyn Kitabxanasında təxminən 11 milyon kitab və yazı nüsxələri yer alıb (kitab rəflərinin ümumi uzunluğu 200 kilometrdən artıqdır). Oxu zallarında 400-dən çox kitabxanaçı oxuculara xidmət göstərir. Nadir və qədim nüsxələrin əksəriyyəti rəqəmsal elektron vasitələrində yerləşdirilib.

Oksford Universitetinin Bodleyn Kitabxanasının əsas binasında professor Nərgiz Paşayeva və kitabxananın direktoru Riçard Ovenden arasında keçirilən görüş zamanı akademik Nərgiz Paşayevanın təşəbbüsü ilə 2013-cü ildə Oksford Universitetinin bir struktur hissəsi kimi yaradılmış Nizami Gəncəvi adına Azərbaycanşünaslıq və Qafqazşünaslıq Elmi Mərkəzinin (https://www.orinst.ox.ac.uk/nizami-ganjavi-programme-study-languages and-cultures-azerbaijan-and-caucasus) fəaliyyəti geniş müzakirə olunub. Mərkəzin elmi-akademik fəaliyyətinin əhəmiyyətindən söz açılıb, fundamental elmi araşdırmalar sahəsində görülmüş işlər və Nizami Gəncəvi Elmi Mərkəzinin gələcək planlarına dair fikirlər səslənib. Maraqlı və olduqca əhəmiyyətli keçən görüşün əsas məqsədi akademik Nərgiz Paşayeva tərəfindən irəli sürülmüş Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun kitabxanasına Nizami Gəncəvinin adının verilməsi təklifinin müzakirəsi idi. Bu təklif Bodleyn Kitabxanasının rəhbərliyi tərəfindən müsbət qarşılandı və yaxın gələcəkdə onun həyata keçiriləcəyi qeyd olundu. Görüşdə bir daha vurğulandı ki, dahi Azərbaycan şairi Nizami Gəncəvinin adının Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun kitabxanasına verilməsi böyük və dahi şəxsiyyətin humanizm, ümumbəşəri, insani ideyalarına, onun dərin fəlsəfəsi və yaradıcılığına verilən layiqli qiymətdir. Bu tarixi hadisə Nizami Gəncəvi Elmi Mərkəzinin son beş ildə Oksford Universitetinin bir hissəsi olaraq elmi-akademik, təhsil, arxeologiya və digər sahələrdəki gərgin əməyinin nəticəsi və təsdiqidir.

Görüşdə iştirak edən Oksford Universitetinin inkişaf departamentinin direktor vəzifəsini icra edən professor Entoni Qrin və Nizami Gəncəvi Mərkəzinin Böyük Britaniya tərəfdən rəhbəri, Oksford Universitetinin professoru Edmund Hertsiq Mərkəzin fəaliyyətini olduqca yüksək qiymətləndirərək qeyd etdilər ki, 2013-cü ildə akademik Nərgiz Paşayevanın təşəbbüsü və səyləri nəticəsində Oksford Universitetində yaradılan Nizami Gəncəvi adına Azərbaycanşünaslıq və Qafqazşünaslıq Elmi Mərkəzi dünya elmi ictimaiyyəti tərəfindən qəbul edilmiş qaydalara uyğun olaraq artıq beş ildir ki, uğurla fəaliyyət göstərir.

Görüşdən sonra professor N.Paşayeva Oksford Universitetinin alimləri ilə birgə Bodleyn Kitabxanasının XV əsrdə ilk yaradılan hissələrindən olan İlahiyyat Məktəbində (Divinity School) oldular. Buradan başlanan və Bodleyndə saxlanan ən qədim əlyazmaların kolleksiyası və onların qorunması mərkəzində başa çatan bu gəzinti olduqca maraqlı keçib. Qeyd edək ki, İlahiyyat Məktəbi 1427-1483-cü illər ərzində yaradılmış bir zaldır, burada xüsusi olaraq mühazirələr, teologiya haqqında müxtəlif müzakirələr və imtahanlar keçirilirdi. İlahiyyat Məktəbində mühüm tədbirlər və hətta kralların da görüşləri təşkil edilirdi. 1625-ci ildə Londonda vəba xəstəliyi tüğyan edən zaman burada hətta İcmalar Palatasının iclasları da keçirilirdi. İlahiyyat Məktəbinin tavanı Avropa qotik arxitekturasının ən böyük nailiyyətlərindən biri hesab olunur.

Bodleyn Kitabxanasının inkişaf departamentinin rəhbəri Eleyn Gallagher professor N.Paşayevanı, həmçinin Bodleyn Kitabxanasının xüsusi kolleksiyalar (Special Collection) bölməsi və Dyuk Hamfri Kitabxanası (Duke Humfrey's Library) adlandırılan oxu zalı ilə də tanış edib. Burada qədim əlyazmalar və arxiv materialları, nadir kitablar, tarixi əhəmiyyətli xəritələr, qədim musiqi nümunələri və rəqəmsal nüsxələr saxlanılır.

Qeyd edək ki, Nizami Gəncəvi adına Elmi Mərkəz Oksford Universitetinin rəsmən qəbul edilmiş və tanınmış struktur bölməsidir və həmin Universitetin təkcə Şərqşünaslıq fakültəsi ilə bağlı məsələləri deyil, ümumiyyətlə, Oksford Universitetində digər sahələrdə elm və təhsillə bağlı olan bütün məsələlərdə Azərbaycan üzrə koordinator səlahiyyətlərinə malikdir. Mərkəz Azərbaycanın, Qafqazın və Orta Asiyanın zəngin tarixi-mədəni irsinin öyrənilməsi və Qərbin elmi-akademik dairələrinə tanıdılması məqsədilə Oksford Universitetinin bir hissəsi olaraq yaradılmış ilk akademik elmi-tədqiqat ocağıdır.

Elmi Mərkəz yarandığı gündən bir sıra mühüm elmi-akademik layihələr həyata keçirib. Onlardan 2015-ci ilin iyunun 6-da Oksford Universitetinin Nizami Gəncəvi adına Mərkəzinin təşkil etdiyi və Oksford Universitetinin Şərqşünaslıq İnstitutu, həmçinin Qədim Antik Dövr Mərkəzi ilə birgə keçirdiyi ilk elmi tədbiri olan "Şərqi Qafqaz son antik dövrdən erkən İslam dövrünə qədər" adlı elmi-praktik konfransı qeyd etmək olar. Oksford Universitetinin tarixində ilk dəfə olaraq konfransda Azərbaycanın qədim tarixi və mədəniyyəti məhz antik dövrdən İslam dövrünə qədərki müddətdə müzakirə edilib və gələcək tədqiqat işləri üçün atılacaq addımlar müəyyənləşdirilib. Tədbirdə Mərkəzin Azərbaycan tərəfdən rəhbəri akademik Nərgiz Paşayeva, Mərkəzin İngiltərə tərəfdən rəhbəri professor Edmund Hertsiq, Böyük Britaniyanın Bizans imperiyasının tarixi üzrə ən tanınmış mütəxəssislərindən sayılan, Oksford Universitetinin Korpus Kristi Kollecinin fəxri üzvü professor Ceyms Hovard-Conston, Şotlandiyanın Edinburq Universitetinin Roma arxeologiyası üzrə professoru, Oksford və Tübingen universitetlərinin mühazirəçisi, eyni zamanda, Böyük Britaniyanın Farsşünaslıq İnstitutunun və Romaşünaslığın Təbliği Cəmiyyətinin şura üzvü Eberhard Zaur, İngiltərənin Durham Universitetinin arxeologiya üzrə doktoru Dan Lourens, Almaniyanın Fridrix Şiller Universitetinin professoru Annaqret Plöntke Lüninq və başqaları iştirak ediblər.

2016-cı il iyunun 11-də Oksford Universitetinin ən qədim təhsil müəssisələrindən biri olan "Brasenose" kollecində Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin növbəti beynəlxalq elmi konfransı keçirilib. "Trans-Xəzər əlaqələri (V-XIII əsrlər)" mövzusuna həsr olunmuş konfransda Oksford Universitetinin alimləri ilə yanaşı, Rusiya Elmlər Akademiyasının ipək və kətan üzrə aparıcı arxeoloqu və tarixçisi professor Zvezdana Dode, Rusiya Elmlər Akademiyasının Dağıstan Elmi Mərkəzində arxeologiya departamentinin rəhbəri professor Murtazəli Hacıyev, Harvard Universitetinin aparıcı arxeoloqu doktor Kərim Əlizadə, Oksford Universitetinin tarixi antropologiya üzrə mütəxəssisi doktor İrina Şingiray, ABŞ-ın Pensilvaniya Universitetinin arxeologiya üzrə aparıcı mütəxəssisi doktor Lara Fabian, Kanadanın Saskatçevan və İngiltərənin Durham universitetlərinin doktoru Kristen Hopper və Oksford şəhərində yerləşən Ətraf Mühitin İdarə Olunması Təşkilatının aparıcı arxeoloqu Çarlz de Kesne də iştirak ediblər.

2017-ci il iyunun 5-də Londonda XIX əsr Kraliça Viktoriya dövründə təsviri incəsənətin əsasını qoyan məşhur rəssam Lord Leytonun (1830-1896) ev muzeyində Oksford Universitetinin Nizami Gəncəvi Elmi Mərkəzinin şərqşünas-alim Yevgeniy Bertelsin (1890-1957) "Böyük Azərbaycan şairi Nizami" (The Great Azerbaijani Poet Nizami) kitabının ingilis dilində ilk akademik tərcüməsinin təqdimat mərasimi keçirilib. Bu kitab ilk dəfə 1940-cı ildə rus dilində çapdan çıxıb. Həmin vaxtdan etibarən kitab nəinki ingilis dilində, ümumiyyətlə, təkrar nəşr olunmayıb. Kitab üçün illüstrasiyaların orijinalları dünyanın ən zəngin və tanınmış kitabxanalarından olan Britaniya Kitabxanasından götürülüb və nəfis şəkildə Britaniyanın "Gilgamesh" nəşriyyat evində çap edilib.

Nizami Gəncəvi Elmi Mərkəzinin tədris sahəsindəki fəaliyyətini əks etdirən layihələrdən biri kimi Mərkəzin dəstəyi ilə Oksford Universitetinin Şərqşünaslıq fakültəsində altı tələbənin təhsil almasını qeyd etmək olar. Bu tələbələr (Ceymz Uayt, Keyti Kempbel, Robert Vilyams, Conatan Lorens - Böyük Britaniya, Eliz Maus Pyu - ABŞ, Ufuk Özturk - Almaniya) Oksfordda artıq Nizami Gəncəvi tələbələri adlandırılır və onların elmi işləri haqqında Mərkəz qısa zamanda hesabat hazırlayacaq.

Qafqaz Albaniyasının tarixinin düzgün istiqamətdə öyrənilməsi üçün Nizami Gəncəvi Elmi Mərkəzinin Azərbaycan tərəfdən rəhbəri akademik Nərgiz Paşayevanın və Oksford Universitetinin professoru Robert Hoylandın təşəbbüsü ilə Oksford Universitetinin arxeoloqları 4 il bundan öncə ilk dəfə olaraq Bərdədə qazıntı işləri aparmaq üçün Azərbaycana səfər ediblər. Layihənin rəhbəri qədim İslam tarixi üzrə dünyanın tanınmış alimlərindən sayılan professor Robert Hoylanddır. Oksford Universitetinin "Brasenose" kollecinin doktoru Paul Vordvorsun rəhbərlik etdiyi 10 nəfərlik Britaniyalı Arxeoloji Ekspedisiya Heyəti 2015-ci ildən başlayaraq Bərdənin mərkəzində yerləşən Torpaqqala ərazisində qazıntıları XI-XIII əsrlərin dərinliyinə çatdırıb. Bu alimlər arxeoloji qazıntılar nəticəsində Bərdənin kifayət qədər inkişaf etmiş şəhər olduğunu aşkara çıxarıblar. Bərdənin kənarında, Qaratəpə adlanan yerdə IV-V əsrlərə aid olan yaşayış məskəni aşkar edilib. Qazıntıların nəticəsi beynəlxalq elmi ictimaiyyətə məhz Azərbaycanın qədim tarixi kimi təqdim ediləcək. Məqsəd Bərdə və Qafqaz Albaniyasının başqa şəhərlərinin qədim irsi və zəngin tarixi haqqında dünyanın elmi ictimaiyyətinə daha zəngin məlumat çatdırmaqdan ibarətdir. Onu da qeyd edək ki, Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin arxeoloqlarından ibarət ekspedisiya heyəti Azərbaycan Tarix Muzeyi ilə əməkdaşlıq edir və muzeydə ekspedisiya üzvləri ilə Azərbaycan alimlərinin bir neçə görüşü də keçirilib. Həmçinin arxeoloji qazıntılar nəticəsində tapılan eksponatlar qorunması və saxlanması üçün Tarix Muzeyinə təqdim olunub.

Nizami Gəncəvi Elmi Mərkəzi tərəfindən Azərbaycanda mədəni irsin qorunması məqsədilə ilk dəfə olaraq Britaniyanın "Sərhədsiz İrs" (Heritage Without Borders) təşkilatı Bərdə Arxeoloji Ekspedisiyasının işinə cəlb edilib. Bu təşkilat dünyanın müxtəlif bölgələrində bəşəriyyətin mədəni irsinin qorunması üçün aparıcı mütəxəssisləri bir araya gətirir və işlədiyi ölkələrdə aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən maddi-mədəniyyət nümunələrinin qorunması və mühafizəsini təşkil edərək, gələcək nəsillərə ötürülməsini təmin edir. Məhz bu məqsədlə Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin Bərdə Arxeoloji Ekspedisiyası çərçivəsində Britaniyanın "Sərhədsiz İrs" təşkilatının rəhbəri, arxeologiya üzrə mütəxəssis doktor Dominika Darkangelo Bakıda və Bərdədə olub və Azərbaycan Tarix Muzeyinin əməkdaşlarına arxeoloji tapıntıların qorunması və mühafizəsi, aşkar edilən maddi-mədəniyyət nümunələrinin konservasiyası və saxlanma üsulları ilə bağlı tövsiyələrini verib.

Bu ilin sonuna qədər Oksford Universitetinin Nizami Gəncəvi adına Elmi Mərkəzi tərəfindən Bərdədə aparılan qazıntı işləri ilə bağlı elmi-akademik təqdimatın keçirilməsi nəzərdə tutulur. Onu da qeyd edək ki, Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin Azərbaycan tərəfdən rəhbəri akademik Nərgiz Paşayevanın təklifi ilə Mərkəzin arxeoloji ekspedisiyası 2017-ci ildən Bakı Dövlət Universitetinin tarix fakültəsinin arxeologiya bölməsinin bir aspirantını (Aslan Qasımov) və iki tələbəsini (Elşən Salayev, Mircavid Ağalarov) arxeologiya sahəsində elmi və praktiki biliklərinin artırılması üçün Bərdədə aparılan işlərə cəlb edib.

Beləliklə, dünyanın ən qədim və zəngin kitabxanalarından olan Bodleyn Kitabxanasında M.V.Lomonosov adına MDU-nun Bakı filialının rektoru, Oksford Universitetinin Nizami Gəncəvi Elmi Mərkəzinin Azərbaycan tərəfdən rəhbəri akademik Nərgiz Paşayeva və Oksford Universitetinin Bodleyn Kitabxanasının direktoru, dünya kitabxanaşünaslıq elminin nüfuzlu nümayəndələrindən olan Riçard Ovenden arasında keçirilən bu mühüm görüş çox əhəmiyyətli və səmərəli olub. Böyük Azərbaycan şairi, dahi Nizami Gəncəvinin adının dünyanın ən qədim elm və təhsil ocaqlarından olan Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun kitabxanasına verilməsi ilə bağlı razılığın əldə olunması tarixi hadisədir və son beş ildə Oksford Universitetinin Nizami Gəncəvi Elmi Mərkəzinin böyük əməyinin nəticəsidir.

Görüşün sonunda akademik Nərgiz Paşayeva Oksford Universitetinin Bodleyn Kitabxanasının Fəxri qonaqlar kitabına xoş təəssüratlarını yazıb.

AZƏRTAC

*İnam Kərimov:*

# Biz kəndlilərin, fermerlərin yanında olmalıyıq





**Mayın 1-də Kənd Təsərrüfatı Nazirliyində pambıq səpininə həsr olunmuş müşavirə keçirilib.**

Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, tədbir martın 26-da Bərdə rayonunda Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsində qarşıya qoyulan vəzifələrin icrasına həsr olunub.

Tədbirdə nazirliyin məsul işçiləri, pambıqçılıq rayonlarının Kənd Təsərrüfatı idarələrinin rəisləri, alimlər, mütəxəssislər, Dövlət Fitosanitar Nəzarəti Xidmətinin, "Aqrolizinq" ASC-nin, həmçinin "MKT İstehsalat Kommersiya" MMC-nin, "Azərpambıq" MMC-nin və pambıq tədarükü məntəqələrinin nümayəndələri iştirak ediblər.

Nazir İnam Kərimov müşavirədə dövlətimizin başçısı tərəfindən Kənd Təsərrüfatı Nazirliyinin qarşısına qoyulmuş tapşırıq və vəzifələrdən danışaraq, bu sahənin inkişaf etdirilməsinin Prezident tərəfindən prioritet vəzifələrdən biri kimi müəyyənləşdirildiyini diqqətə çatdırıb. İnam Kərimov bildirib ki, hazırda 133 min hektar sahədə pambıq əkini aparılıb, ancaq buna baxmayaraq, keçən il həm obyektiv, həm də subyektiv səbəblərə görə pambıqçılıqda müəyyən problemlər yaşanıb.

"Prezident İlham Əliyev tərəfindən qarşımıza mühüm vəzifələr qoyulub. Bu sahədə çatışmazlıqlar qısa müddətdə aradan qaldırılmalıdır. Biz pambıq əkinini nümunəvi həddə çatdırmalıyıq. Düzgün planlaşdırma həyata keçirilməli, koordinasiya düzgün olmalıdır", - deyə nazir qeyd edib.

Müşavirədə pambıqçılıqla məşğul olan rayonların və həmin rayonlara təhkim olunmuş nümayəndələrin səpinlə bağlı məlumatları dinlənilib, onların təklifləri ətrafında müzakirələr aparılıb.

Həmçinin pambıq istehsalında mövcud vəziyyət geniş müzakirə edilərək, cari ildə pambıq səpininin mütəşəkkil həyata keçirilməsi, tələb olunan texnika və avadanlıqlarla vaxtında təminat üçün "Aqrolizinq" ASC-yə, pambıqçılıqda tətbiq olunan kimyəvi preparatlardan vaxtında və düzgün istifadə edilməsi barədə Dövlət Fitosanitar Nəzarəti Xidmətinə, nazirliyin məsul işçilərinə tapşırıq və tövsiyələr verilib.

Sonda nazir deyib: "Bizim vəzifəmiz kəndlilərə, fermerlərə yaxın olmaqdır. Bu, bizim əsas fəaliyyət prinsiplərimizdəndir. Biz kəndlilərin yanında olmalıyıq. Bugünkü görüş bizim tapşırıq görüşümüzdür".

**AZƏRTAC**

# Rusiyalı professorun "Heydər Əliyev şəxsiyyəti: xatirələr" məruzəsi maraqla qarşılanıb





**Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu ilə birgə ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş "Milli mənəvi dəyərlər: ənənə və müasirlik" mövzusunda beynəlxalq elmi konfrans keçirib.**

AzMİU-dan AZƏRTAC-a bildirilib ki, konfransda ölkəmizin ali təhsil müəssisələrindən, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix və Fəlsəfə İnstitutundan, Türkiyə, Çin və Rusiyadan nümayəndələr iştirak ediblər.

Konfransda AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova ümummilli lider Heydər Əliyevin həyat yoluna nəzər salıb, Ulu Öndərin uğurlu siyasətindən, dövlətçiliyimizin, ölkəmizin inkişafında göstərdiyi müstəsna xidmətlərdən danışıb.

Moskva Dövlət Hüquq Universitetinin birinci prorektoru, professor Y.Qraçovanın "Heydər Əliyev şəxsiyyəti: xatirələr" məruzəsi maraqla qarşılanıb. O, təmsil etdiyi təhsil ocağının rəhbərliyinin Ulu Öndərlə dostluq münasibətlərindən danışıb. Qonaq Moskva Dövlət Hüquq Universitetinin bağlanma təhlükəsi yarananda dərin zəka sahibi Heydər Əliyevin onlara dəstək olduğunu böyük minnətdarlıq hissi ilə yada salıb. Y.Qraçova müdrik şəxsiyyət Heydər Əliyevin Moskva Dövlət Hüquq Universitetinin fəxri professoru olduğunu vurğulayıb və Ulu Öndərin fotolarının yer aldığı xatirə kitabını AzMİU-nun rektoruna təqdim edib.

AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun direktor müavini Cəbi Bəhramov "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti" mövzusunda məruzə ilə çıxış edib. O, Heydər Əliyev şəxsiyyətinə həsr olunmuş ikicildlik monoqrafiyanı universitetin kitabxanasına hədiyyə edib.

AMEA-nın Fəlsəfə İnstitutunun direktoru, professor İlham Məmmədzadə, AzMİU-nun ictimai fənlər kafedrasının müdiri, dosent Könül Əliyeva və Bilik Fondunun Aparat rəhbəri İsaxan Vəliyev Ümummilli Liderin həm sovet dönəmində, həm də müstəqillik illərində gördüyü böyük işlərdən söz açıblar.

Sonra konfrans işini ayrı-ayrı bölmələrdə davam etdirib.

**AZƏRTAC**

# Yasamal rayonunda yataqxanalarda məskunlaşmış məcburi köçkünlərlə görüş keçirilib

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev mayın 1-də Azərbaycan Texniki Universitetinin Bakı şəhəri Yasamal rayonu, Abbas Mirzə Şərifzadə küçəsi 1 ünvanında yerləşən yataqxanalarında məskunlaşmış məcburi köçkünlərlə görüşüb.**

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, komitə sədri vəziyyətlə yerindəcə tanış olub, orada yaşayan məcburi köçkünlərin problemlərini dinləyib, yataqxananın zirzəmi



hissəsində yerləşən və nəmişlikdən yararsız vəziyyətə düşmüş otaqlara baş çəkib.

Görüşdə iştirak edən Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov məcburi köçkünlərin problemlərinin həllinin hər zaman dövlətin diqqət mərkəzində olduğunu bildirib.

Rövşən Rzayev yataqxanada məskunlaşmış məcburi köçkünləri mayın 15-də Dövlət Komitəsində görüşə dəvət edib. Komitə sədri deyib ki, görüşün məqsədi məcburi köçkünlərin problemlərini daha dərindən öyrənməkdir.

**AZƏRTAC**

# Birdəfəlik ödəmələrin verilməsi ilə əlaqədar Komissiya yaradılıb

**Azərbaycan Prezidentinin "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 19 aprel 2018-ci il tarixli Fərmanının icrası ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Komissiya yaradılıb. Fərmanın icrasının nazirlik tərəfindən aidiyyəti üzrə vaxtında, tam və yüksək səviyyədə təmin edilməsi məqsədilə yaradılan Komissiya ilk iclasını keçirib.**

Bu barədə ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Komissiyanın sədri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev vurğulayıb ki, əhalinin sosial müdafiəsinin gücləndirilməsi Azərbaycan Prezidenti cənab İlham Əliyevin ölkəmizin hərtərəfli inkişafını təmin edən uğurlu siyasətinin əsas prioritetlərindən birini təşkil edir: "Xalqımızın yekdil dəstəyi ilə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyevin andiçmə mərasimindən sonrakı ilk iki gündə məhz sosial müdafiə sahəsi ilə bağlı iki mühüm sənədi imzalaması da bunun növbəti təzahürüdür. Bunlar-



dan biri "1941-1945-ci illər İkinci Dünya Müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 20 aprel 2018-ci il tarixli Sərəncamdır. Həmin şəxslərə Sərəncamda nəzərdə tutulan məbləğlərdə birdəfəlik maddi yardımın çatdırılması işləri 9 May - Qələbə Gününə qədər tam yekunlaşacaqdır. Cənab Prezidentin andiçmə mərasimindən sonra sosial müdafiə sahəsi ilə bağlı imzaladığı ilk sənəd isə "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 19 aprel 2018-ci il tarixli Fərmandır. Bu Fərmanın imzalanması şəhid ailələrinin rifah halının yaxşılaşdırılması istiqamətində tədbirlərin davam etdirildiyini, eyni zamanda, sosial ədalət prinsipinin ölkəmizdə tam təmin olunduğunu bir daha özündə təcəssüm etdirir".

S.Babayev bildirib ki, Fərman 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə 11.000 (on bir min) manat məbləğində birdəfəlik ödəmə verilməsini nəzərdə tutur: "Sosial müdafiə əhəmiyyətli bu mühüm Fərmanın yüksək səviyyədə icrası, xüsusilə də qeyd edilən birdəfəlik ödəmənin verilməsi prosesinin tam şəffaf, ümumən vətəndaş məmnunluğuna səbəb olacaq şəkildə həyata keçirilməsi bu gün qarşımızda duran əsas vəzifələrdəndir. Nazirin əmri ilə yaradılan Komissiya tərəfindən bu istiqamətdə tədbirlərin təşkili və həyata keçirilməsi təmin olunacaq. Komissiya birdəfəlik ödəmələrin şəffaf şəkildə verilməsinin təşkili mexanizmini bir ay müddətində müəyyən edəcək".

Nazir qeyd edib ki, Fərmanda nəzərdə tutulan şəxslərin ümumi siyahısının hazırlanması üçün aidiyyəti qurumlara müraciətin göndərilməsi ilə bağlı Komissiya tərəfindən konkret müddətlər müəyyən edilib: "Eyni zamanda, birdəfəlik ödəmənin verilməsi ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş İnformasiya Sisteminin "Sosial ödənişlər" alt-sistemində "Birdəfəlik ödəmələr" bölməsi və müraciətlərin vahid elektron reyestri yaradılacaq. Hərbi qulluqçunun ad və soyadını, atasının adını daxil etməklə müvafiq siyahıda olub-olmamasını müəyyən etməyə imkan verən internet informasiya resursunun fəaliyyəti də təmin ediləcək".

S.Babayev vurğulayıb ki, bu işlər Fərmanda ödəniş edilməsi nəzərdə tutulan şəxslərin vərəsələrinin hər hansı süni maneələr və süründürməçilik olmadan şəffaf şəkildə bu hüquqlarının tanınmasını təmin edəcək, eyni zamanda ödəniş mexanizmi də aidiyyəti qurumlarla razılaşdırılaraq sadə, əlçatan və səmərəli şəkildə qurulacaqdır.

**Mustafa KAMAL,**
**"Respublika".**

# "ZİRVƏYƏ DOĞRU" FİLMİ TƏQDİM OLUNDU

**Aprelin 30-da Beynəlxalq Mətbuat Mərkəzində ədəbiyyatşünas alim, tənqidçi, nəzəriyyəçi, filologiya elmləri doktoru, professor Xalid Əlimirzəyevin həyat və yaradıcılığına həsr olunmuş "Zirvəyə doğru" filmi nümayiş olunmuşdur. Qəhrəmanın uşaqlıq çağlarından başlamış, onun ali təhsil aldığı illər, pillə-pillə yüksəlişi, elmi-ədəbi axtarışları, tədqiqatları, pedaqoji fəaliyyəti, dərslik, monoqrafiyaları və beləliklə, bütünlükdə həyatı bir süjet boyu təsvir olunmuşdur.**



Tanınmış ədəbiyyatşünas alim, ictimai xadim, maarifçi, pedaqoq Xalid Əlimirzəyevə özünün fitri istedadı, yaradıcı zəhməti ilə böyük bir elmi-nəzəri yükü çiynində daşımaqdan ötrü XX əsrdə yaşamaq qismət olmuşdur. O, 1932-ci ildə Qəbələ rayonunun Qəmərvan kəndində anadan olmuşdur. Uşaqlıqdan mükəmməl təhsil almaq, Azərbaycan ədəbiyyatının tədqiqi ilə məşğul olmaq onun böyük arzusu idi. Odur ki, orta məktəbi bitirdikdən sonra ali təhsil almaq üçün Bakıya gəlmiş, özünü sevdiyi sənətdə tapmaq üçün yollar aramışdır. Öyrənmək, arayıb- axtarmaq, qəlbində çağlayan arzularına doğru irəliləməyi qarşısına məqsəd qoyan gənc özünütəsdiq yollarında addım-addım irəliləmişdi...

Ədəbiyyatı əbədiyyətə gedən yol adlandırırlar. Bu yolda xalq üçün, sənət üçün, çalışmaq, ədəbiyyatı, müxtəlif dövrlərin ədəbi simalarını, onların yaratdığı əsərləri tədqiq etməkdə və ədəbiyyat tariximizin yaddaşına ötürməkdə X.Əlimirzəyevin xidmətləri böyükdür. Xalid müəllimi uzun illər boyu təkcə ədəbiyyat tarixini deyil, həm də öz taleyini yazmışdır. Bu sahədə böyük şəxsiyyətlər — Cəfər Xəndan və Mir Cəlal Paşayev onun qarşısında uğur qapılarını açmışdılar. O, ədəbiyyat tariximizin görkəmli tədqiqatçıları, ədəbi şəxsiyyətləri M.Arif, M.C.Cəfərov, C.Cəfərov, C.Xəndan, M.Cəlal kimi müəllimlərdən dərs almış, onların məktəbini keçmişdir. Xalid müəllim universiteti bitirdikdən sonra 3 il təyinatla öz rayonlarında müəllim kimi çalışdı. 1963-cü ildən isə onun Bakı həyatı başlandı. X.Əlimirzəyev aspiranturada təhsil almış, 1964-cü ildə namizədlik, 1972-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. Bu illərdə o, ədəbiyyat tarixinin tədqiqi ilə ciddi məşğul olmuş, elmi əsərlər, sanballı monoqrafiyalar üzərində işləmişdir. 1974-cü ildən Bakı Dövlət Universitetində Azərbaycan ədəbiyyatı kafedrasının professoru kimi pedaqoji fəaliyyət göstərmişdir. Azərbaycan Milli Yaradıcılıq Akademiyasının akademiki olan X.Əlimirzəyev 1992-1993-cü illərdə təhsil nazirinin birinci müavini vəzifəsində çalışmışdır.

Xalid Əlimirzəyev onlarca monoqrafiya və kitabların, 500-dən çox elmi-publisistik məqalənin müəllifidir. Onun "Dahi sənətkar, böyük vətəndaş", "M.F.Axundovun ideal və sənət dünyası", "Ədəbi-tənqidi məqalələr" və bir çox digər kitablarında ədəbiyyatımızın ciddi problemləri araşdırılıb təhlil olunur. O, müxtəlif dövrlərdə yaşayıb yaratmış bir çox klassiklərimizin həyat və yaradıcılığını tədqiq etmiş, bu sahədə də dəyərli elmi əsərlər ərsəyə gətirmişdir. Onun bir çox əsərləri içərisində özünəməxsus yeri olan "Mənəvi borc" kitabı böyük ehtiramın, qədirdanlığın ifadəsi olaraq elmdə və ədəbi mühitdə yetişməsi və inkişafında böyük rolu olan müəllimi, professor Mir Cəlal Paşayevin əziz xatirəsinə həsr olunmuşdur. Doğru deyiblər ki, insanın həyatda bir neçə adama borcu olur: ata-anaya, ilk dəfə ona qələm tutmağı öyrədən müəlliminə, həyatda onu yetişdirən müdrik insana. Bu mənada X.Əlimirzəyev ustadı, müəllimi Mir Cəlal Paşayevin xarakterini bir neçə istiqamətdən açmış, onun həqiqi cizgilərinin ifadəsi olan parlaq obrazını yaratmışdır: "Görkəmli ədəbiyyatşünas, yazıçı, professor Mir Cəlal Paşayev mənim taleyimdə çox böyük rol oynayıb. O, ali məktəbdə və aspiranturada müəllimim, namizədlik və doktorluq dissertasiyamın elmi rəhbəri olub. İş elə gətirib ki, sonralar onunla bir kafedrada işləmişik. Mir Cəlal müəllim məni dəfələrlə həyatın bataqlıqlarından çıxarıb. Çox işdə arxam, dayağım olub. Həmişə kürəyimdə onun isti nəfəsini hiss etmişəm, amma bütün bunların əvəzində bir dəfə də olsun ona təşəkkür etməyə, minnətdarlığımı çatdırmağa imkan verməyib. Etdiyi yaxşılıqları, göstərdiyi hamilik yardımını da özünün müəllimlik və böyüklük borcu hesab edib". Onun dediyi bu fikirlərdə yaxşılığı, sədaqəti, düzlüyü qiymətləndirən müdrik bir kişinin mərdanə hərəkətinə, xeyirxahlığına, çətin anlarda sinəsini qabağa verib onu müdafiə edən, yetirməsinə arxa duran müəlliminə, ustadına ehtiramın aydın ifadəsi duyulur.

"Mənəvi borc"un təqdimatında səslənən dəyərli fikirlərdən də aydın olmuşdur ki, əsərdə müəllim-tələbə, elmi rəhbər-dissertant münasibətləri, həmkar, dost, əqidədaş yaxınlığı, ustad himayəsi və bunların timsalında böyük bir ictimai həyatın, elmi-ədəbi mühitin tədqiqi əsərin böyük səriştə və bacarıqla, ürəklə, minnətdarlıq hissilə yazıldığını göstərirdi. Filmdə bütün bunları həssaslıq və incəliklə açan, ifadə edən Mir Cəlal müəllimin oğlu akademik Arif Paşayev, nəvəsi, həm də elmdə və sənətdə davamçısı — ədəbiyyatşünas alim, professor Nərgiz xanım Paşayevanın əsər haqqında söylədikləri kitaba verilən böyük dəyərin ifadəsi idi. Filmdə bir-birini əvəz edən kadrlarda Xalid müəllimin həmkarları, dostları, tələbələri arasında görünməsi, ötən illərinə boylanaraq, 50 illik pedaqoji və ədəbiyyatşünaslıq sahəsində fəaliyyətinə, mənəvi dünyasına, gerçək həyatda yaşadıqlarına ekskurs etməsi tamaşaçıların ovqatına bir həzinlik gətirmişdir. Yeri gəlmişkən, Xalid müəllim Mir Cəlal Paşayevin yaradıcılığından, elmi-pedaqoji fəaliyyətindən bəhs edən bir neçə kitabın müəllifidir.

Xalid müəllim ilk gəncliyindən ədəbiyyata böyük maraq göstərdiyindən bədii yaradıcılıqla da məşğul olub. O, 1955-ci ildə ədəbi aləmə "Peşmançılıq" hekayəsilə gəlmiş, ömrün müdrik çağında bir neçə pyesi milli teatrımızın səhnəsində oynanılmış, bədii əsərlərindən ibarət "Bələdçi" kitabı da işıq üzü görmüşdür. Burdan da aydın olur ki, X.Əlimirzəyev elmi-ədəbi yaradıcılığını bir çox istiqamətdə aparmaqla təfəkkürünün işığında müxtəlif çeşidli əsərlərini ərsəyə gətirmişdir. Lakin o, hər şeydən əvvəl, ədəbiyyat tariximizin yorulmaz tədqiqatçısı, nəzəriyyəçisi idi. Bir maarfçi kimi, xalqın inkişafını, milli yüksəlişini elmdə, təhsildə görürdü. O, ana dilimizin saflığı uğrunda uzun illər ideoloji mübarizə aparmış, ömrünün böyük bir payını ədəbiyyatımızın elmi-nəzəri problemlərinin tədqiqinə həsr etmişdir.

Xalid Əlimirzəyev həqiqət işığına, haqqa, ədalətə tapınmış görkəmli ziyalı idi. O, bir vətəndaş olaraq ictimai həyatda da böyük bacarıq və səylə fəaliyyət göstərirdi. Xalqın milli-azadlıq hərəkatının önündə gedir, gənclərimizə torpağa, yurda məhəbbət hissi aşılayır, onların vətənpərvərlik ruhunda tərbiyə olunmasına çalışırdı. Xalid müəllim 2003-cü ildə yaradılmış və bir neçə il fəaliyyət göstərmiş "AMAL" Ziyalı Hərəkatının sədri olmuşdur.

Filmin nümayişindən sonra çıxış edən Xalq artisti Flora Kərimova, professor Almaz Əliqızı, Əməkdar jurnalist Əbülfət Mədətoğlu, Əməkdar artist Azad Şükürov, Gülnarə Cəmaləddinqızı, Tərlan Quliyev, Natiq Qubadoğlu və başqaları X.Əlimirzəyevi filoloji elmimizin görkəmli tədqiqatçısı, tənqidçisi, ictimai xadimi kimi xarakterizə etmiş, haqqında ürək sözlərini söyləmiş, onu bütöv əqidəli bir şəxsyyət, qeyrətli vətəndaş və ziyalı kimi dəyərləndirmişlər. O da qeyd olunmuşdur ki, bir çox istiqamətlərdə fəaliyyət göstərən Xalid Əlimirzəyev bu sahələrin hər birində də sənətin zirvəsinə yüksələ bilmişdir. Cəsarətli vətəndaş, ziyalı kimi, bir elin, bir nəslin ağsaqqalı, qürur yeri olmaq hər kəsə nəsib olmur. Xalid müəllim özünün istedadı, zəhməti, elmi, mədəni erudisiyası, sadəliyi, vətənpərvərliyi, insansevərliyi ilə bu gözəl keyiyyətləri özündə cəmləşdirə bilmişdir.

Bütün bunlar "Zirvəyə doğru" filminin qəhrəmanı, professor Xalid Əlimirzəyevin həyat və yaradıcılığının dolğun şəkildə, sənətkarlıqla yaradılmış salnaməsi, parlaq obrazının elmi-bədii siqlətindən doğan təəssüratlar idi.

Tədbirin sonunda filmin ssenari müəllifi Elşən Qəni, X.Əlimirzəyevin qızı, filologiya üzrə fəlsəfə doktoru Rəfayət Əlimirzəyeva "Zirvəyə doğru" filminin yaradıcı heyətinə təşəkkürlərini bildirdilər.

**Şəfəq NASİR,**
**"Respublika".**

# "Ballı" nümunəvi arıçılıq təsərrüfatıdır

**Dağın, çəmənin, meşənin gülü-çiçəyindən zərrə-zərrə toplanan bal dünyanın ləziz neməti, min bir dərdin dərmanıdır. Zəngin Azərbaycan təbiəti bu gözəl məhsulun geniş xammal mənbəyidir. Respublikamızın şimal rayonlarında - Quba, Qusar, Şabran, Xaçmazda yetişən bal öz dadı və yüksək keyfiyyəti ilə seçilir. Təsərrüfatın bu gəlirli sahəsinin inkişafı üçün həm aranı, həm də dağı olan bu rayonların böyük imkanları vardır. Arıçılıq həm də kənd təsərrüfatı bitkilərinin, xüsusilə meyvəçiliyin məhsuldarlığının artırılmasında da əvəzsiz rol oynayır. Dövlətin bu sahəyə son illər xüsusi diqqət yetirməsi arıçılığın inkişafına təkan vermişdir. Bu sahədə əməllibaşlı canlanma hiss olunur. Bəzi arıçılıq təsərrüfatları, hətta məhsullarını xaricə ixrac etməyə başlayıblar. Ölkəmizin arıçılıq məhsulları indi dünyanın ən böyük sərgilərində nümayiş olunur. Həm daxili bazara, həm də xaricə ekoloji cəhətdən təmiz, yüksək keyfiyyətli məhsul çıxaran nümunəvi arıçılıq təsərrüfatlarından biri Xudatda fəaliyyət göstərən "Ballı" MMC-dir.**

Yaşıllıqlara bürünmüş Çaxçaxlı kəndinin hər tərəfi meşəlikdir. "Ballı" təsərrüfatının arıxanalarından biri bu kənddə yerləşir. Arıçıların yanındayıq. Bu günlər onların işi, necə deyərlər - başından aşır. Odur ki, söhbətimizə elə arıxanada davam edirik. Yeşikləri bir-bir nəzərdən keçirən Aydın kişi deyir ki, erkən yazda arıxanamız burada yerləşir. Qışdan salamat çıxan arılar bu ərazidə daha çox bitən ağcaqayın, söyüd, zoğal, qarağac ağaclarının çiçəklərinə qonur. Gələcək məhsul üçün ilkin bünövrə buradan qoyulur. Sonrakı dövrdə mayın ortalarına kimi arılar meyvə ağaclarından, çəmən çiçəklərindən, kollardan bəhrələnirlər. Yay aylarında isə arı ailələrini Qubanın Qonaqkənd, Qırız Dəhnə, Zərqova ərazilərinə, Qusarın Sudur, Ləzə, Gican kəndlərinə köçürürük. Buralar arının ən çox sevdiyi - yemişan, böyürtkən, itburnu, gərməşov, zirinc, əzgil bitkiləri ilə boldur. Hazırda arılara yaz-baytar xidmətini həyata keçirir, beçəverməyə tədarük görürük. Arıxanamızın bir hissəsi başqa kənddə yerləşir. Ona qardaşım Həsən ailəsi ilə birlikdə qulluq edir. O da təcrübəli arıçıdır. Aran rayonlarında da təsərrüfatlarımız var. Ümumiyyətlə, "Ballı" MMC özündə 6 arıçılıq təsərrüfatını birləşdirir.

Öyrənirik ki, arıçılıq Rəşidovlar ailəsinin ənənəvi məşğuliyyətidir. 52 ildir ki, bu ənənə davam edir. 40 ildən çox arıçılıqla məşğul olan Aydın Rəşidovun atası Əlifxan kişi uzun illər Qusarda dövlət arıçılıq təsərrüfatında zootexnik işləyib. Rayonun məşhur arıçılarından biri olub.

Aydın kişi deyir ki, ötən il mən 300 arı ailəsinə xidmət etmişəm. Onun tən yarısını arıçılıq təsərrüfatlarına damazlıq kimi satmışam. İstehsal etdiyimiz məhsulun bir hissəsini yerindəcə satmış, bir hissəsini "Made in Azerbaijan" brendi ilə xarici bazarlara göndərmişik. Bakı şəhərində təşkil olunan bal yarmarkasına 200 kiloqramdan çox məhsul çıxartmışıq. Onu da deyim ki, "Ballı" MMC-nin satış və idarəetmə məsələləri ilə oğlum, kiçik sahibkar Rəşad Rəşidov məşğul olur.

Hazırda o, "Ballı" MMC-nin təsisçisi və icraçı direktorudur. Onu da qeyd edək ki, sahibkarlıq fəaliyyətində fərqləndiyinə görə



Rəşad Rəşidov ötən ilin aprel ayında ölkə başçısının sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Kiçik sahibkar deyir ki, arıçılıq Azərbaycanın qədim və ənənəvi istehsal sahələrindən biridir. Bu sahə ilə məşğul olmaqda əsas məqsədim ölkəmizin bu gözəl məhsulunu xaricdə layiqincə tanıtmaqdan ibarətdir. Respublikamızın zəngin təbiəti bir çox bölgələrdə arıçılıq təsərrüfatlarının sayının artırılmasına, ekoloji təmiz məhsulun istehsalına və yeni emal müəssisələrinin yaradılmasına imkan verir. Daxili bazarda artıq yeni trend yaranmışdır ki, istehlakçılar yerli bal və arıçılıq məhsullarına üstünlük verirlər. Bu gün bazarda qablaşdırılma formasından başlayaraq, keyfiyyətli məhsulun kompleks halında təqdim olunmasına qədər öz mövqeyimizi tutmuşuq. Daxili bazarla yanaşı, "Ballı" MMC ixrac etdiyi məhsulları ilə Azərbaycan balının dünyada tanıdılmasını həyata keçirir. "Ballı" İqtisadiyyat Nazirliyinin Quba-Xaçmaz Regional İnkişaf Mərkəzində fəaliyyət göstərən biznes inkubatorunun rezidentlərindəndir. Burada yaradılmış şəraitin, keçirilən nəzəri və praktiki təlimlərin biznesimizin inkişaf etdirilməsində böyük faydası olmuşdur.

2016-cı ildə təsdiq edilmiş ixracatçılara dəstək mexanizmləri və "Made in Azerbaijan" brendinin təşviqi tədbirləri bal istehsalçılarında da böyük stimul yaratmışdır. Son illərdə ixracın təşviqi istiqamətində aparılan tədbirlər nəticəsində Azərbaycan balı xarici bazarlarda öz müştərilərini tapmağa başlamışdır. Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Macarıstan və Almaniyada təşkil olunmuş ixrac missiyalarında, Almaniyanın Köln şəhərində "ANUGA" Beynəlxalq Ərzaq Sərgisində təşkil olunmuş vahid ölkə stendində iştirak etmiş, AZPROMO-nun təşkilatçılığı ilə çoxsaylı biznes forumlara qatılmaqla, məhsullarımızı təşviq etmək imkanı qazanmış və uğurlu nəticələr əldə etmişik. Bu gün biz bir çox xarici dövlətlər, xüsusilə körfəz dövlətləri, habelə Yaponiya bizim məhsullara böyük maraq göstərir.

Heydər Əliyev Mərkəzində iştirakçısı olduğum "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının 4-cü ilinin yekunlarına həsr olunmuş konfransda möhtərəm Prezidentimizin arıçılığın inkişafı ilə bağlı söylədiyi çox dəyərli fikirlər bizi daha yaxşı işləməyə ruhlandırıb.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**

# “Gazelli Group” şirkəti və İDEA Heyvanlara Qayğı Mərkəzinin evsiz heyvanlara yardıma yönəlmiş birgə xeyriyyə aksiyasına start verilib

**Layihə barədə “Gazelli Group” şirkətinin nümayəndəsi Tofiq Feyzullayev bildirib ki, “Gazelli Group” şirkəti, bu layihəyə dəstək olaraq, xeyriyyə aksiyasının keçirilməsinə dair qərar qəbul edib və bu məqsədlə, unikal, müalicəvi bitkilərdən hazırlanmış 6 cövhərli şampun və duş gelinin məhdud seriyasını istehsal edib. Satışların start nöqtəsi “Gənclik Mall” ticarət mərkəzində yerləşən İDEAL mağazası olacaq. Məhsulları seçmək çox asandır - qara flakonların üzərində it təsvirləri var.**



“Gazelli Group” şirkətinin bu məhsullarını əldə edərək, siz gələcəyə töhfə verməklə, sığınacaqda yaşayan heyvanlara ümid bəxş edirsiniz. Bu kosmetika məhsullarının satışından əldə edilən vəsait İDEA Heyvanlara Qayğı Mərkəzinin hesabına köçürüləcək.

Böyük və kiçik şəhərlərin küçələrində evsiz heyvanlar olur. Bu isə insanların “kiçik dostlarımıza” qarşı qəddarlığının və laqeydliyin bariz nümunəsidir. Bu problem yalnız bizim region deyil, həm də bütün dünyada aktualdır. Bunun isə iki tərəfi var: həm ekoloji təhlükə, həm belə heyvanlardan əhalinin sağlamlığı üçün təhlükə və əlbəttə ki, aclıqdan, xəstəliklərdən və ya qəddar rəftardan ölən heyvanların özlərinin acınacaqlı vəziyyəti...

2017-ci il martın 1-də evsiz heyvanlarla bağlı ölkədə yaranmış vəziyyətin həlli istiqamətində böyük bir addım atıldı - Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə, İDEA Heyvanlara Qayğı Mərkəzinin açılışı baş tutdu. Evsiz pişiklər və itlərin taleyinə laqeyd yanaşmayanlar, bu mərkəzə böyük ümidlər bəsləyir. Bu mərkəzin təşkili bizə ətraf mühiti qorumağın vacibliyini xatırladır.

İDEA evsiz heyvanların sterilləşdirilməsi, peyvəndlənməsi və çiplənməsinə böyük diqqət ayırır. Həmçinin mərkəzdə heyvanların humanist metodlarla tutulması üzrə xüsusi təlimdən keçmiş səyyar qrup fəaliyyət göstərir. Mərkəzin fəaliyyəti, bu xeyirxah niyyətə laqeyd olmayan insanların ianələri hesabına həyata keçirilir. Heyvanlara qarşı himayə və insani münasibəti təbliğ edən sığınacağa maddi dəstək verilməsi çox əhəmiyyətlidir və hər birimizdən asılıdır.

Yaxşılıq etmək - çox asandır. Bizə qoşulun, gəlin heyvanlara birlikdə kömək edək!

**AZƏRTAC**

# Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ağdaşda vətəndaşlarla görüşəcək

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə 04.05.2018-ci il tarixində saat 15:00-da Ağdaş şəhərində Ağdaş, Kürdəmir, Ucar, Göyçay rayonlarının və Mingəçevir şəhərinin sakinlərinə göstərilən nəqliyyat, telekommunikasiya (o cümlədən, internet, televiziya və radio yayımı) və poçt xidmətlərinin keyfiyyəti, xidmət mədəniyyəti və bu sahədə bölgələrdə əhalini maraqlandıran digər məsələlərlə bağlı vətəndaşları qəbul edəcək.

Vətəndaşlardan “mincom@mincom.gov.az” elektron poçt ünvanı, 1655 “Çağrı Mərkəzi”, 012 598 38 18 nömrəli telefon vasitəsi ilə (regionlardan edilən zənglər pulsuzdur) əlaqə saxlayıb qəbula yazılmaları xahiş olunur.

Eyni zamanda, qəbula gəlmək istəyən vətəndaşlar, zərurət yaranarsa, yaşadıqları ərazinin poçt və telefon qovşaqları tərəfindən nəqliyyat vasitələri ilə təmin olunacaqlar. Bunun üçün:

| | |
|---|---|
| **Ağdaş rayonunda** | **02023 55159** |
| **Mingəçevir şəhərində** | **02427 52999** |
| **Kürdəmir rayonunda** | **02025 51599** |
| **Ucar rayonunda** | **02021 33777** |
| **Göyçay rayonunda** | **02027 42366** |

nömrəli telefonlara zəng etmələri xahiş olunur.

# Formula 1 üzrə Danimarka Qran-Prisinin təşkilatçıları Azərbaycanın təcrübəsini öyrənirlər

**İspaniyanın www.caranddriver.es portalında “Danimarka Qran-Prisi Azərbaycandan nümunə götürür” sərlövhəli məqalə dərc edilib. Məqalədə deyilir ki, danimarkalı təşkilatçılar Bakıya, Azərbaycan Qran-Prisinin təşkilatçıları ilə məsləhətləşmələrə gediblər.**




Danimarka Qran-Prisini də Kopenhagen şəhərinin küçələrində görmək istəyən təşkilatçılar hazırkı təqvimdə əsas şəhər yarışı olan, Bakıda keçirilən Azərbaycan Qran-Prisinin təşkilatçılarından məsləhət istəyirlər.

Danimarka Qran-Prisinin keçirilməsinin planlaşdırıldığı Kopenhagen trasının layihəsi artıq memar Herman Tilke tərəfindən razılıqla qarşılanıb.

**AZƏRTAC**

# DÖVLƏT SƏRHƏD XİDMƏTİ MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI

**Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən sərhəd təhlükəsizliyinin təmin edilməsi sahəsində əməliyyat-axtarış və sərhəd mühafizə tədbirləri uğurla davam etdirilir.**

2018-ci il aprelin 26-da DSX əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində 5 nəfər əcnəbi vətəndaş tərəfindən dövlət sərhədinin pozulmasının qarşısı alınmışdır.

Hadisə Dövlət Sərhəd Xidmətinin “Göytəpə” sərhəd dəstəsinin xidməti ərazisində baş vermişdir. Həmin tarixdə Biləsuvar rayonunun Biləsuvar kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində “Pusqu” sərhəd naryadında olan sərhədçilər tərəfindən arxa istiqamətdən mühəndis çəpərinə yaxınlaşan 5 nəfər naməlum şəxs müşahidə olunmuş və hərəkətləri nəzarətə götürülmüşdür. Həmin şəxslər sərhəd zastavasının mühəndis çəpərindən keçməyə cəhd edərkən sərhəd naryadı tərəfindən sərhəd pozucusu qismində saxlanılmışlar.

Araşdırma zamanı Azərbaycan Respublikasından İran İslam Respublikası istiqamətində dövlət sərhədini pozmağa cəhd göstərən şəxslərin Şri-Lanka vətəndaşları - 1987-ci il təvəllüdlü Kunarathinam Thuvisan, 1977-ci il təvəllüdlü Sellakılı Santhırakumar, 1983-cü il təvəllüdlü Ratnasingam Satheeskumar, 1994-cü il təvəllüdlü Gunaslgar Kamstan və 1978-ci il təvəllüdlü Anthony Cross Anthony Belder olmaları müəyyən olunmuşdur.

Saxlanılmış şəxslər barəsində zəruri əməliyyat-istintaq tədbirləri həyata keçirilir.

TƏKRAR

“Azərişıq” ASC 2018-ci ildə 110/10 kV-luq “Sabirabad” - 110/35/10 kV-luq “Sığırlı-Dartı” YS-lar arası 110 kV-luq 1 dövrəli EVX-dən budaqlanma yolu ilə 110/35/10 kV-luq “Cavad” YS-dək çəkiləcək 110 kV-luq 2 dövrəli EVX-nin əsaslı təmir işlərinin satın alınması məqsədilə açıq tender elan edir

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT-1. 110/10 kV-luq “Sabirabad” - 110/35/10 kV-luq “Sığırlı-Dartı” YS-lar arası 110 kV-luq 1 dövrəli EVX-dən budaqlanma yolu ilə 110/35/10 kV-luq “Cavad” YS-dək çəkiləcək 110 kV-luq 2 dövrəli EVX-nin əsaslı təmir işlərinin satın alınması - 300 manat

“Azərişıq” ASC
VÖEN: 9900069391
Hesab No:
AZ83AİİB33020029441802068118
Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
Müxbir hesab No:
AZ37NABZ01350100000000001944
SWİFT Code: AİİBAZ2X

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanında yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs - Aşəd Ağayev (telefon: 440-39-93 daxili (22-83))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün yazılı müraciət;

-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;

-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);

-tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).

-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;

-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;

-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

-müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 22 may 2018-ci il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 31 may 2018-ci il saat 16:00-a qədər Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 01 iyun 2018-ci il tarixində saat 16:00-da Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanında “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

“AZƏRİŞIQ” ASC-nin TENDER KOMİSSİYASI.

## BİLDİRİŞ

“Bakı Metropoliteni” QSC tərəfindən 02.05.2018-ci il tarixdə keçirilməsi nəzərdə tutulan “Avtomobil, maşın və mexanizmlər üçün sürtgü yağlarının satın alınması” üzrə Açıq Tenderin vaxtı 18 may 2018-ci il tarixə saat 15:30-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 08 may 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 17 may 2018-ci il saat 18:00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi 20 ünvanına “İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri” şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

**“Bakı Metropoliteni” QSC-nin Tender Komissiyası.**

## BİLDİRİŞ

“Respublika” qəzetinin 01 may 2018-ci il tarixli, № 96 (6129) sayında Azərbaycan Dövlət Neft və Sənaye Universitetində vakant vəzifələri tutmaq üçün verilmiş müsabiqə elanında ***“Mexanika” kafedrası - 0,5 ştat professor-1, dosent-7, 0,5 ştat dosent-2”*** sətri aşağıdakı kimi oxunmalıdır:

**“Mexanika” kafedrası - 0,5 ştat professor-1, dosent-8, 0,5 ştat dosent-1.**

# DÜNYA BUGÜN

**FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR**

## ❑ ÜÇ ÖLKƏ İRANIN NÜVƏ PROQRAMINA DAİR YENİ SƏNƏD İMZALANMASINI ZƏRURİ SAYIB



Böyük Britaniya, Almaniya və Fransa İranın nüvə proqramı ilə bağlı yeni razılaşmanın imzalanmasını, bu sənəddə Hərtərəfli Birgə Fəaliyyət Planında əksini tapmayan bir sıra yeni elementlərin daxil edilməsini vacib sayıblar. “APA”nın Rusiya mətbuatına istinadən verdiyi xəbərə görə, bu məsələ Böyük Britaniya baş naziri Tereza Meyin Almaniya baş naziri Angela Merkel və Fransa prezidenti Emmanuel Makronla telefon danışığının nəticəsi ilə bağlı yayılan bəyanatda əksini tapıb.

Bəyanatda qeyd edilib ki, tərəflər Hərtərəfli Birgə Fəaliyyət Planının qorunub saxlanılmasını, eyni zamanda, İranın yaratdığı bir sıra problemlərin həlli üçün ABŞ-la birgə çalışmağı, yeni məsələlərin də daxil ediləcəyi yeni razılaşmanın imzalanmasını dəstəkləyirlər. Bu məsələlər sırasında “İranın nüvə proqramı və Tehranın regionda qeyri-stabilliyə yol açan fəaliyyəti” qeyd olunub.

Xatırladaq ki, İranın nüvə proqramı üzrə Hərtərəfli Birgə Fəaliyyət Planı 2015-ci ilin iyul ayında İran və “altılıq ölkələri” - Almaniya, Böyük Britaniya, Fransa, Çin, Rusiya və ABŞ arasında qəbul edilib. İyulun 20-də plan BMT Təhlükəsizlik Şurası tərəfindən təsdiq edilib.

Razılaşmaya əsasən, İran nüvə silahının əldə edilməsindən imtina edir, qarşılığında isə sanksiyalar tədricən ləğv edilir. 2017-ci ildə ABŞ prezidenti Donald Tramp İranla bağlı yeni strategiyanı elan edib. D.Tramp İranı terrorun maliyyələşdirilməsində ittiham edib, rəsmi Tehranın nüvə razılaşmasının müddəalarını pozduğunu vurğulayıb. O, həmçinin gələcəkdə razılaşmanın pozulmasını istisna etməyib.

## ❑ PAKİSTAN ƏSİLLİ ŞƏXS BRİTANİYADA NAZİR TƏYİN OLUNUB



Böyük Britaniyada yeni daxili işlər naziri təyin olunub. “APA”nın məlumatına görə, Ember Raddın istefasından sonra bu vəzifəyə milli azlıqların nümayəndəsi, Pakistan əsilli Sacid Cavid təyin olunub.

Verilən xəbərə görə, 1969-cu il təvəllüdlü Sacid Cavid daha əvvəl “Chase Manhattan” bankında, “Deutsche Bank”da çalışıb və Britaniya hökumətində yerli özünüidarə məsələlərinə cavabdeh olub.

Sacid Cavidin bu vəzifəyə təyinatı onunla izah edilir ki, baş nazir Tereza Mey DİN-ə əvvəl bu qurumla hər hansı əlaqəsi olmamış və sələfi Ember Raddın qarışdığı qalmaqala bağlılığı olmayan bir şəxs təyin etmək istəyib.

Xəbər verildiyi kimi, Ember Radd “Windrush” adlanan qalmaqaldan sonra istefa verib. Londonun İkinci Dünya Müharibəsindən sonra işçi ehtiyacını ödəmək üçün Afrika və Karib adalarından dəvət etdiyi işçilərin nəsilləri Britaniyada məhz bu cür adlandırılır. Bu ad 1948-ci ildə Yamaykadan bir neçə yüz adamı gətirən “Empire Windrush” laynerinin adından götürülüb. Onlardan sonra minlərlə digər işçi ölkəyə gəlib. 1971-ci ildə onların hamısına müddətsiz Britaniyada qalmaq hüququ verilib. Lakin 2012-ci ildə qanunvericilik sərtləşdirildikdən sonra onların bəziləri deportasiya təhlükəsi ilə üzləşib. Yeni sənədə əsasən onlar qanunsuz miqrant sayılıb. Qalmaqal da bununla əlaqədar yaranıb. Ember Radd parlament komitəsinə deportasiya ediləcək miqrantların göstəriciləri ilə bağlı yanlış məlumatlar verib.

## ❑ BMT MYANMADA ETNİK TƏMİZLƏMƏ HADİSƏLƏRİNİ ARAŞDIRIR



Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının nümayəndələri Myanmanın Arakan müsəlmanlarına tətbiq etdiyi etnik təmizləmə hadisələrini araşdırır. Bu barədə “TRT” telekanalı məlumat yayıb.

Banqladeşdəki düşərgələrə baş çəkən BMT heyəti gördükləri qarşısında sarsılıb. Belə ki, BMT nümayəndə heyəti gözlərinin önündə ən yaxınları öldürülən, işgəncə və təcavüzə məruz insanlarla qarşılaşıb.

Məlumata görə, gözü qarşısında nənəsi öldürülən bir qız BMT nümayəndə heyətində olan Böyük Britaniya səfirinə sarılaraq ağlayıb.

Qarşılaşdıqları dram qarşısında heyrətə düşən heyət üzvləri düşərgələrdə həyat mübarizəsi verən qaçqınların ölkələrinə qayıdışını sürətləndirmək üçün əllərindən gələni edəcəklərini bildiriblər.

BMT nümayəndə heyəti daha sonra Myanma ərazisinə keçib. Arakan əyalətinin mərkəzi Sittvedə də görüşlər keçirən nümayəndə heyətinə müsəlmanların yanmış, dağılmış kəndlərinə getməyə yenə icazə verilməyib.

Xəbər verilir ki, Myanma hökuməti Banrgladeşə sığınan Arakan müsəlmanlarının ölkələrinə qayıtmasını şəxsiyyət vəsiqələri olmaq şərtilə qəbul edir, lakin onları evlərinə deyil, tikanlı məftillərlə əhatəli düşərgələrə yerləşdirməyi planlaşdırır. Myanma hökuməti həmçinin qovduğu müsəlmanların yerinə yandırıb məhv etdiyi kəndlərə isə myanmalı bütpərəstləri yerləşdirir.

## ❑ TRAMPIN “TWİTTER” SƏHİFƏSİNİN ARXASINDA KİM DAYANIR?




ABŞ prezidenti Donald Trampın “Twitter” sosial şəbəkəsindən paylaşımlarının arxasında sosial media məsələləri üzrə məsləhətçisi Dan Skavinonun dayandığı iddia edilir. Bu barədə “TRT” telekanalı ABŞ mətbuatına istinadən xəbər verib.

Məlumata görə, 51 milyondan çox izləyicisi olan Trampın rəsmi “Twitter” hesabı dünya gündəmini müəyyən edir.

Donald Trampın hesabı tərəfindən əngəllənən bəzi istifadəçilər ABŞ prezidentinin hərəkətlərinin konstitusiyaya zidd olduğunu bildirirlər. Hətta yerləşdirilən mesajlarla bağlı məhkəməyə belə müraciətlər edilib. Bu məhkəmə işlərində adı çəkilən şəxslərdən biri də Trampın sosial media məsələləri üzrə məsləhətçisi Dan Skavinodur.

“New York Times” qəzeti Ağ Evin səlahiyyətli şəxslərindən aldığı məlumatlara əsaslanaraq, Dan Skavinonun çalışqan və Trampa sadiq olduğunu qeyd edir.

Skavinonun Trampın “tvitlərinin” məzmununa müdaxilə etdiyini iddia edən qəzet bu müdaxilənin hansı ölçüdə olduğunun bilinmədiyini vurğulayıb.

Qeyd edək ki, Ağ Evdə Donald Trampdan əvvəl sosial media məsələləri üzrə məsləhətçi vəzifəsi olmayıb. Don Skavino ilə indiki prezident arasında uzun illərin dostluq bağı olduğu bildirilir.

## ❑ TBİLİSİ METROSUNUN FƏALİYYƏTİ DAYANDIRILA BİLƏR



Tbilisidə metropoliten işçiləri əmək haqlarının artırılması tələbi ilə may ayının 3-dən etibarən tətilə çıxa bilərlər. “APA”nın məlumatına əsasən, bu barədə “Birlik-2013” müstəqil həmkarlar ittifaqının keçirdiyi aksiyada elan olunub.

Verilən xəbərə görə, ittifaq üzvləri bildiriblər ki, tələb mayın 3-dək yerinə yetirilməsə, metronun fəaliyyəti tamamilə dayandırılacaq. Onlar şəhər sakinlərinə metronun fəaliyyət göstərməyəcəyi təqdirdə yaranacaq problemləri özündə əks etdirən flayerlər də paylayıblar.

Məlumata əsasən, Tbilisi metropoliteni işçilərinin orta aylıq əmək haqqı 1038 lari (421 dollar) təşkil edir. Metro işçiləri saatlıq əmək haqlarının 7 laridən 10 lariyə qədər artırılmasını tələb edirlər.

Tbilisi metropoliteni əməkdaşlarının maaşları 2013-cü ildən artırılmır. Ötən həftə metro işçiləri, Tbilisi Nəqliyyat Şirkəti və Tbilisi meriyası arasında keçirilmiş görüşdə əmək haqlarının artırılması ilə bağlı razılıq əldə olunmayıb.

Qeyd edək ki, Tbilisi metrosu hər gün təxminən 290 min sərnişinə xidmət göstərir.

## ❑ DÜNYADA MALYARİYA XƏSTƏLİYİ İLƏ BAĞLI NARAHATLIQLAR ARTIB



Son 10 il ərzində ilk dəfədir ki, malyariya hallarının sayı artıq aşağı düşmür. Bu, bir çox hallarda ölümlə nəticələnən xəstəliyin yenidən qayıda biləcəyi ilə bağlı narahatlıqlara səbəb olub. Bu barədə “BBC” agentliyi xəbər verib.

Mütəxəssislər və xeyriyyəçi Bill Qeyts Londonda keçirilən Britaniya Birliyi sammiti ərəfəsində dünya liderlərini malyariya ilə mübarizəyə daha çox vəsait ayırmağa səsləyiblər.

Məlumata görə, 2016-cı ildə dünya əhalisinin az qala yarısı malyariya riski ilə üzləşib, 91 ölkədə 216 milyon insan isə bu xəstəliyə düçar olub. 2016-cı ildə əvvəlki illə müqayisədə xəstəlik hallarının sayı 5 milyonadək artıb.

Mütəxəssislər hesab edirlər ki, malyariyaya qarşı daha çox resurs və önləyici addımlar tələb olunur. Əks halda onun yayılması nəticəsində ölüm hallarının sayı kəskin arta bilər.

Eyni zamanda, xəbər verilir ki, malyariya halları Cənubi və Şərqi Asiya, Sakit Okean regionu, Amerikanın müxtəlif bölgələri və Afrikada artmaqdadır.

Bununla yanaşı, bir çox başqa regionlarda malyariyanın yayılması ilə bağlı vəziyyət ya sabit qalır, ya da ki, xəstəliyin sayı aşağı düşməkdədir. ■

# “BAKI ƏYİRİCİ TOXUCULUQ” ASC-nin 2017-ci il üçün maliyyə hesabatı

**BAKI ƏYİRİCİ TOXUCULUQ Açıq Səhmdar Cəmiyyət**
**31 dekabr 2017-ci il tarixə MALİYYƏ HESABATLARINA DAİR QEYDLƏR**
(Məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

**31 dekabr 2017-ci il tarixinə Maliyyə vəziyyəti haqqında hesabat**

| | 2017 | 2016 |
|---|---|---|
| **Qısamüddətli aktivlər** | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | **84609,09** | **1198,9** |
| - Kassa | 553,91 | 328,88 |
| - Hesablaşma hesabı | 84055,18 | 870,02 |
| -Valyuta hesabı | 11,39 | 0,00 |
| **Ehtiyatlar** | **1162545,69** | **1511242,51** |
| - Materiallar | 773993,81 | 1292246,86 |
| - Hazır məhsul | 388551,88 | 63990,94 |
| - Öz istehsalının yarımfabrikatı | 0,00 | 155004,71 |
| **Qısamüddətli debitor borcları** | **305108,66** | **0,00** |
| Sair debitorlar | 305108,66 | 0,00 |
| **Sair qısamüddətli aktivlər** | **109499,00** | **195847,37** |
| - Uzunmüddətli maliyyə qoyuluşları | 0,00 | 6,00 |
| - Alıcılarla hesablaşmalar(özəlləşmədən əvvəl yaranan ) | 0,00 | 54681,03 |
| -Əvəzləşdirilən əlavə dəyər vergisi | 5391,26 | 23298,48 |
| Digər qısamüddətli aktivlər (ƏDV depozit hesabı) | 5009,64 | 10978,86 |
| -Gələcək hesabat dövrünün xərcləri | 99098,10 | 106883,00 |
| **Uzunmüddətli aktivlər** | | |
| Torpaq, tikili və avadanlıqlar | **598129,40** | **648562,36** |
| Torpaq, tikili və avadanlıqlar - Dəyər | 3075481,91 | 3071560,75 |
| Torpaq, tikili və avadanlıqlar - Amortizasiya | -2477352,51 | -2422998,39 |
| Qeyri-maddi aktivlər | **141772,95** | **141772,95** |
| Qeyri-maddi aktivlər - Dəyər | 371029,80 | 371029,80 |
| Qeyri-maddi aktivlər - Amortizasiya | -229256,85 | -229256,85 |
| **CƏMİ AKTİVLƏR** | **2401664,79** | **2498624,09** |
| **Qısamüddətli öhdəliklər** | **1162178,72** | **1158751,89** |
| Malsatan və podratçılara qısamuddətli kreditor borcları | 25977,96 | 151113,28 |
| Alıcılar və sifarişçilərin qısamuddətli kreditor borcları | 3977,43 | 0.00 |
| Əməyin ödənişi üzrə və işçi heyəti ilə təhtəl hesab məbləğ | 60588,96 | 14333,26 |
| - Büdcə ilə hesablaşmalar | 0,00 | -94561,84 |
| - DSMF-üzrə hesablaşmalar | 14508,27 | 14679,15 |
| Sair qısamüddətli kreditor borcları | 354766,1 | 39388,04 |
| Təsisçilərlə hesablaşmalar | 702360,00 | 1033800,00 |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | **277103,00** | **367622,03** |
| Bank krediti | 277103,00 | 367622,03 |
| **KAPİTAL** | **962383,07** | **972250,17** |
| Ödənilmiş nominal(nizamnamə) kapital | 1597654,00 | 1597654 |
| -Kecmiş illərin ödənilməmiş zərəri | -625403,83 | -303327,12 |
| Hesabat ilinin bölüşdürülməmiş mənfəəti | -9867,1 | -322076,71 |
| **CƏMİ PASSİVLƏR** | **2401664,79** | **2498624,09** |

**BAKI ƏYİRİCİ TOXUCULUQ Açıq Səhmdar Cəmiyyət**
**31 dekabr 2017-ci il tarixə MALİYYƏ HESABATLARINA DAİR QEYDLƏR**
(Məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

**31 dekabr 2017-ci il tarixində bitən il üzrə maliyyə fəaliyyətinin nəticələri haqqında Hesabat**

| | 2017 | 2016 |
|---|---|---|
| **Gəlir və Xərclərin Maddələri** | | |
| Malların təqdim edilməsindən gəlir | 8936544,50 | 4909865,81 |
| Daşınan və daşınmaz əmlakın icarəyə verilməsindən gəlir | 8500,00 | 5635,90 |
| Digər gəlirlər | 0,00 | 2547,92 |
| **Cəmi gəlirlər** | **8945044,50** | **4918049,63** |
| Malların təqdim edilməsi üzrə xərclər | -8533504,07 | -4592962,84 |
| Amortizasiya ayırmaları | -59811,84 | -79005,39 |
| Sığorta üzrə xərclər | -1322,22 | -1010,22 |
| Gəlirdən çıxılan vergilər | -8106,08 | -7134,83 |
| Digər xərclər | -25459,44 | -9027,20 |
| **Cəmi xərclər** | **-8628203,65** | **-4689140,48** |
| **Faiz xərci** | **-29980,39** | **-72855,45** |
| Xarici valyuta məzənnəsinin dəyişməsindən fərq | -6602,36 | 0,00 |
| **Vergiyə cəlb olunan mənfəət** | **280258,10** | **156053,70** |
| **Mənfəət vergisi hesablanan zamanı nəzərə alınmayan xərclər** | **-234073,58** | **-446919,67** |
| Qeyri-maddi aktivə(qudvilə) hesablanmış amortizasiya ayırmaları | **0,00** | 0,00 |
| **Mənfəət vergisi** | **-56051,62** | **-31210,74** |
| **Xalis mənfəət** | **-9867,10** | **-322076,71** |

**BAKI ƏYİRİCİ TOXUCULUQ Açıq Səhmdar Cəmiyyət**
**31 dekabr 2017-ci il tarixə MALİYYƏ HESABATLARINA DAİR QEYDLƏR**
(Məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

**31 dekabr 2017-ci il tarixində bitən il üzrə Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat**

| | 2017 | 2016 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti:** | | |
| Hesabat dövründə xalis mənfəət və ya zərər | -9867,10 | -322076,71 |
| Aşağıdakı maddələr üzrə düzəlişlər: | | |
| Amortizasiya xərcləri | 54354,12 | 65492,64 |
| Ödənilmiş faiz xərci | 29980,39 | 72855,45 |
| Mənfəət vergisi üzrə xərclər | -55509,15 | 31210,74 |
| Ödənilmiş mənfəət vergisi | 55509,15 | -31210,74 |
| **Əməliyyat aktiv və passivlərində dəyişiklik lərdən əvvəl əməliyyat fəaliyyətlərindən yaranan pul vəsaitlərinin hərəkəti** | **74467,41** | **-183728,62** |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklər** | | |
| Ehtiyatlarda artma və ya azalma | 348696,82 | -787941,02 |
| Qısamüddətli debitor borcları artma və ya azalma | -305108,66 | 117915,92 |
| Sair qısamüddətli aktivlər artma və ya azalma | 86348,37 | 182044,74 |
| Qısamüddətli kreditor borcları artma və ya azalma | 3426,83 | 875100,85 |
| **Əməliyyat fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | **207830,77** | **203391,87** |
| **İnvestisiya fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti:** | | |
| Binalar və avadanlıqların alınması | -3921,16 | -302,93 |
| Qeyri-maddi aktivlərin alınması(bərpası) | | |
| **İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | **-3921,16** | **-302,93** |
| **Maliyyələşdirmə fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti:** | | |
| Borc götürülmüş digər vəsaitlərdə xalis artma | -90519,03 | -132377,97 |
| Ödənilmiş faizlər | -29980,39 | -72855,45 |
| **Maliyyələşdirmə fəaliyyətində yaranan xalis pul vəsaitləri** | **-120499,42** | **-205233,42** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma** | 83410,19 | -2144,48 |
| **İlin əvvəlində pul vəsaitləri və onların ekvivalentləri** | **1198,9** | **3343,38** |
| **İlin sonunda pul vəsaitləri və onların ekvivalentləri** | **84609,09** | **1198,90** |

**BAKI ƏYİRİCİ TOXUCULUQ Açıq Səhmdar Cəmiyyət**
**31 dekabr 2017-ci il tarixə MALİYYƏ HESABATLARINA DAİR QEYDLƏR**
(Məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

**31 dekabr 2017-ci il tarixində bitən il üzrə İştirakçı Kapitalında Dəyişikliklər Hesabatı**

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Kapitalın cəmi |
|---|---|---|---|
| **31.12.2015-ci il tarixinə qalıq** | **1597654,00** | **-303327,12** | **1294326,88** |
| **Düzəlişlər** | 0,00 | 0,00 | **0,00** |
| Qaytarila bilən iştirakçı kapitalında artma | 0,00 | 0,00 | **0,00** |
| Xalis mənfəət | 0,00 | -322076,71 | **-322076,71** |
| **31.12.2016-cı il tarixinə qalıq** | **1597654,00** | **-625403,83** | **972250,17** |
| **Düzəlişlər** | | | |
| Qaytarila bilən iştirakçı kapitalında artma | 0,00 | 0,00 | **0,00** |
| Xalis mənfəət | 0,00 | -9867,10 | **-9867,10** |
| **31.12.2017-ci il tarixinə qalıq** | **1597654,00** | **-635270,93** | 962383,07 |

## AUDITOR RƏYI
## AUDITOR OPINION
## SERIYA AK - 05

**“Bakı-Əyirici-Toxucu” ASC-nin səhmdarlarına**
**VÖEN: 9900009281**

**Rəy**
Biz “Bakı-Əyirici-Toxucu” ASC-nin (bundan sonra “Cəmiyyət”) 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatından və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.
. Şərti müsbət rəy bildirmədən biz əsas diqqəti maliyyə hesabatlarının IX qeydlərinə yönəldirik. Maliyyə hesabatlarına dair qeydlərdə göstərildiyi kimi torpaq, tikili və avadanlıqların yenidənqiymətləndirilməsi aparılmamışdır.
Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları maliyyə hesabatlarına dair qeydlərdə göstərilənlərin maliyyə hesabatlarına təsiri istisna olmaqla (əgər olarsa). Cəmiyyətin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Milli Mühasibat Ucotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün və ədalətli təsəvvür yaradır.

**Rəy üçün əsaslar**
Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.
**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**
Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq maliyyə hesabatları standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.
Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.
Cəmiyyətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.
**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**
